# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

**AZƏRBAYCAN RESPUBLİKASI**

---

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**

**Cild: 1 Sayı: 4**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**

**Volume: 1 Issue: 4**

**Bakı – Baku**
**2021**

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə 01.03.2021-ci ildə daxil edilmişdir.
Reyestr №4336

The journal is included in the Register of Press editions of the Ministry of Justice of the Republic of Azerbaijan on 01.03.2021.
Registration number: 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Press Avenue, 529,
“Azerbaijan” Publish House,
6-th floor

**Tel.:** (050) 209 59 68
(055) 209 59 68
(012) 510 63 99

**e-mail:**
tedqiqat1707@gmail.com

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

INTERNATIONAL STANDARD SERIAL NUMBER INTERNATIONAL CENTRE

Crossref Content Registration

INTERNATIONAL Scientific Indexing

ORCID

WorldCat®

Academic Resource Index ResearchBib

doi®

Academia.edu

Google scholar

CiteFactor Academic Scientific Journals

MENDELEY

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© www.aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor:**
**Mübariz HÜSEYNOV**
tədqiqatçı
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCHID IP 0000-0002-5274-0356

**Founder and chief editor:**
**Mubariz HUSEYINOV**
researcher
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCHID IP 0000-0002-5274-0356

**Redaktor:**
**Dürdanə HÜMBƏTOVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent
durdanahumbatova@gmail.com

**Editor:**
**Durdana HUMBATOVA**
phd in philology, docent
durdanahumbatova@gmail.com

**Redaktor köməkçisi:**
**Səidə ƏHMƏDOVA**
seide-86@mail.ru

**Assistant editor:**
**Saidah AHMADOVA**
seide-86@mail.ru

**Dillər üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV** / Azərbaycan dili
**Prof. Dr. Abbas ABBASOV** / İngilis dili

**Language editors**

**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV** / Azerbaijani language
**Prof. Dr. Abbas ABBASOV** / English language

**Elmi sahələr üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA /** Humanitar və ictimai elmlər bölməsi
**Dr. Fuad RZAYEV /** Təbiət elmləri bölməsi
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Dəqiq elmlər bölməsi
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Texnika elmləri bölməsi

**Editors in scientific fields**

**Assoc. Prof. Dr. Durdana MAMMADOVA /** Department of Humanities and social sciences
**Dr. Fuad RZAYEV /** Department of Nature sciences
**Prof. Dr. Yaşar MEHRƏLIYEV /** Department of Exact sciences
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Department of Technical sciences

## REDAKSİYA HEYƏTİ

**Humanitar və ictimai elmlər bölməsi**

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet YÜCE**, Bursa Uludağ Unnveristeti / Türkiyə
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İzzət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena QORBAÇEVA,** Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. Şirindil ALİŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Funda TOPRAK,** Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Boris KAYQORODOV,** Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Rüfət RÜSTƏMOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Kazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Rafail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Flera SEYFULLİNA**, Kazan Federal Universiteti / Rusiya, Tatarıstan Respublikası
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Şəhla SƏMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA,** Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərba ycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Prof. Dr. Abbas ABBASOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr.Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne American University / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

**Təbiət elmləri bölməsi**

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL,** Selcuk Üniversiteti / Türkiyə
**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. Sabir HƏBİBOV**, Rusiya Tibbi-Texniki Elmlər Akademiyası / Rusiya
**Prof. Dr. İbrahim CƏFƏROV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Elçin AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Duyğu KILIÇ**, Amasiya Universiteti / Türkiyə
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Dr. Erkin İSAKOV**, Fərqanə İctimai Sağlamlıq Tibb İnstitutu / Özbəkistan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnklişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat institutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevda TAHİRLİ,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Unversiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
Dr. **Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

**Dəqiq elmlər bölməsi**

**Prof. Dr. Məhəmməd MEHDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

**Texnika elmləri bölməsi**

**Prof. Dr. Elçin İSGƏNDƏRZADƏ**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti / Azərbaycan

# EDITORIAL STAFF

## Humanities and Social Sciences section

**Prof. Dr. Mohsun NAGISOYLU**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Mehmet YUJE**, Bursa Uludagh University / Turkey
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Izzet RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena GORBACHEVA,** Astrakhan State University / Russia
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Boris KAYGORODOV,** Astrakhan State University / Russia
**rof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIAUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent Pedagogical University / Uzbekistan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Elshad MIRBASHIR OGLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Flera SEYFULLINA**, Kazan Federal University / Russia, Republic of Tatarstan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State Economic University /Azerbaijan
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA,** Astrakhan State University of Architecture and Construction Engineering **/** Russia
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc.Prof.Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN,** Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan

**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the Uzbekistan Academy of Sciences / Uzbekistan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

## Natural Sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Nikolai BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Georgi DUKA**, Moldovan Academy of Sciences / Moldova
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Sabir HABIBOV**, Russian Academy of Medical and Technical Sciences / Russia
**Prof. Dr. Ibrahim JAFAROV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Elchin AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Dr. Elcin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Dr. Erkin ISAKOV**, Fergana Institute of Public Health / Uzbekistan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof**. Dr. Shikar **AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevda TAHIRLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## Exact sciences section

**Prof. Dr. Mahammad MEHDIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden

## Technical sciences section

**Prof. Dr. Elchin ISGANDARZADE**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan State University of Architecture and Construction / Azerbaijan

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2789-6919/7-10

**Validə Eldar qızı Ağayeva**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi Və İdman Akademiyası
filologiya üzrə fəlsəfə doktoru, dosent əvəzi
vali1997@mail.ru

## DİSPUTUN ŞİFAHİ NİTQ NÖVÜ KİMİ TƏLƏBƏLƏRİN MƏNƏVİ KEYFİYYƏTLƏRİNİN VƏ ÜNSİYYƏT VƏRDİŞLƏRİNİN İNKİŞAFINA TƏSİRİ

**Xülasə**

Tərbiyəvi tədbirlər sırasına disputlar da daxildir ki, tələbələrin mənəvi keyfiyyətlərinin formalaşmasında bunlar əhəmiyyətli rol oynayır. Disput özünün məqsədi, məzmunu, ideya istiqaməti cəhətindən təlim prosesinin davamıdır. Disputlar yanlış əxlaqi təsəvvürlərlə düzgün əxlaqi təsəvvürləri qarşılaşdırmağa və müxtəlif əxlaqi görüşlərin bir-biri ilə müqayisəsi əsasında, onların hansının düzgün olub-olmadığını müəyyən etməyə imkan verir. Disput şifahi təbliğatın asan və maraqlı formasıdır. Disputun əsas məqsədi tərbiyə prosesini mənəvi keyfiyyətlərə yönəltməkdən ibarətdir. Disputların müntəzəm, mütəşəkkil, sistemli təşkili və keçirilməsi cansıxıcılığı və formalizmi aradan qaldırır. Disputlar gənclərin dünyagörüşünün formalaşmasına görə lazımdır. Onların şifahi nitqinin inkişafına təsir etməklə, həm də onlarda prinsipiallıq tərbiyə edir.
***Açar sözlər**: ünsiyyət, şifai nitq, mənəvi, disput, mübahisə*

## The effect of dispute on the development of students' spiritual qualities and communication habits as a type of oral speech

**Summary**

Educational activities also include disputes, which play an important role in the formation of students' moral qualities. Dispute is a continuation of the learning process in terms of its purpose, content, direction of ideas. Disputes make it possible to compare misconceptions with misconceptions and to determine which ones are correct by comparing different moral views. Dispute is an easy and interesting form of oral propaganda. The main purpose of the dispute is to direct the educational process to moral qualities. Regular, organized, systematic organization and holding of disputes eliminates boredom and formalism. Disputes are necessary for the formation of the worldview of young people. By influencing the development of their oral speech, it also instills in them a sense of principle.
***Key words:** communication, oral speech, moral, dispute, argument*

Məşhur çex pedaqoqu Y.A.Komenskinin ideyaları mənəvi keyfiyyətlərin tərbiyəsi ilə sıx bağlıdır. Onun «Velikoe didaktika» əsəri bu gün də öz aktuallığını itirməmişdir. Platon və Aristotelin fikirləri ilə şərik olaraq Y.A.Komenski başlıca ləyaqəti müdriklik, mötədillik, mərdlik və ədalətlilik hesab edir. Bunardan başqa, o, uşaqlarda ciddilik, tabelik, başqalarına hörmət və ehtiramla yanaşma, səliqəlik, əzakətlilik, əməksevərlik kimi keyfiyyətləri inkişaf etdirməyi məsləhət görür. Mənəvi tərbiyənin vasitəsini o, – valideynlərin, müəllimlərin, ətrafdakı insanların nümunəsində, öyüd-nəsihət, söhbət və mənəvi keyfiyyətlərin təlimində; əxlaqsızlıqla, tənbəlliklə, düşünülməmiş hərəkətlə, intizamsızlıqla mübarizədə görür.

Humanitar istiqamətdə məntiqli psixoloqlardan biri olan Franklin hesab edir ki, mənəvi keyfiyyətlər daxili dialoq və əsas orqan olan vicdanın səsi əsasında formalaşır (10, 10).

Mənəvi keyfiyyətlərin formalaşdırılması haqqında istər pedaqoji və istər psixoloji ədəbiyyatlara nəzər saldıqda görürük ki, mənəvi keyfiyyətlər tələbə şəxsiyyətinin tərbiyə olunmasında bünövrə rolunu oynayır. Bu keyfiyyətlərin tərbiyəsi insanın mütləq keyfiyyətlərini təsdiq edən, onun bacarıq və maraqlarının tam olaraq reallaşdırılmasında böyük rolu olan humanizmə əsaslanır. Mənəvi keyfiyyətlərin əsası əvvəlki nəslin mədəni-tarixi təcrübəsindən ibarətdir.

Bu gün son 15-20 ildə ali məktəbdə çalışan müəllimlər müasir tələbələrin öz sələfləri ilə müqayisədə daha az mütaliə etməsi ilə üzləşirlər. Həm tədris prosesində, həm də ondan sonrakı dövrdə gənc nəsillə ünsiyyət zamanı bunun əyani təsdiqinin şahidi oluruq. Təəssüf ki, müasir tələbələr biliklərə və onların təhlilinə xüsusi həvəs göstərmirlər. Müasir ixtisaslı mütəxəssis təkcə biliklərlə silahlanmış deyil, həm də onları praktikada tətbiq etməyi bacaran, gələcəkdə bilik və keyfiyyətlərini müstəqil şəkildə artırmağa qadir olan insandır. Belə bir mütəxəssis hazırlamaq üçün onu məlumatla "yükləmək" kifayət deyil. Müəllimin, əsas vəzifəsi tələbəyə düşünməyi, fikirlərini əsaslandırmağı öyrətməkdir. Məsələn, məlumatla yüklənmiş bir tələbə Ali təhsil ocağını bitirdikdə qarşımızda iqtisadi göstəricilərin hesablanması düsturlarını əzbərləmiş, lakin iqtisadiyyatda baş verən hadisələrin mahiyyətini anlamayan "dar düşüncəli mütəxəssis" dən başqa heç kəs olmayacaq. Buna görə də təhsil qarşısında qoyulan məsələləri həll etmək üçün interaktiv tədris metodlarından daha geniş istifadə etmək lazımdır.

N.B.Məmmədli «Azərbaycan dilində işgüzar və akademik kommunikasiya» dərsliyində yazır: «Müasir təhsil ənənəvi təhsildən əhəmiyyətli dərəcədə fərqlənir, ən mühüm tələbləri tələbələri problemlərin müstəqil həllini tapmağa həvəsləndirmək, onları yaradıcılıq peosesinə cəlb etmək, bilavasitə tədris prosesində innovativ metodları stimullaşdırmaq, işgüzar və akademik kommunikasiyada Azərbaycan dilinin rolu haqqında təsəvvür formalaşdırmaqdır. Ali məktəblərə verilən müasir tələblərə əsasən tələbələr də müəyyən mənada tədqiqatçı olmalıdırlar. Tədqiqatçılıq qabiliyyəti yüksək olan tələbə müstəqil, sərbəst mühakimə, mükəmməl hazırlıqla elmi material barədə dolğun, aydın və sistemli məlumat verir» (9, 18, 193).

Son dövrdə Ali məktəblərimizdə dərsdənkənar işin kütləvi formaları sırasına debat, interaktiv söhbət və s. daxil olmuşdur ki, bunların içərisində disput xüsusi yer tutur. Disput latın sözü olub, mühakimə yürütmək, mübahisə etmək deməkdir (11, 5). Mübahisə sözündə nə qədər müxəlif mənalar var-kiçik həyati toqquşmalar, özünüdərketmə, dünyanın yaranması sirri... «Həqiqət mübahisədən doğur» fikri tarixdə özünü çətinliklə təsdiq edib, müxtəlif dövrlərdə və müxtəlif mədəniyyətlərdə müxtəlif cür başa düşülürdü.

Disputlar ən çox tədris kollektivi ilə aparılır. İlk növbədə qeyd etmək lazımdır ki, disputlar tədris işi ilə düzgün uyğunlaşdırılmalıdır. Bu tədbirlər gənc nəsildə təşəbbüskarlıq, müstəqillik, təşkilatçılıq vərdişlərinin, ictimai fəallığın, milli ləyaqətin, Vətənə məhəbbətin, düzlüyün, və s. keyfiyyətlərin tərbiyəsinə təkan verir. Disputların təşkili tələbələrə pedaqoji təsiri gücləndirməklə yanaşı, onların mənfi təsirlərdən uzaqlaşmasına və asudə vaxtdan səmərəli istifadə etməsinə köməklik göstərir.

Mübahisə – problemin ümumi müzakirəsi, öz fikirlərini isbat etmək və başqasının fikrini təkzib etmək prosesində nəzər nöqtələrinin toqquşması deməkdir. Mübahisə bu və ya digər bir məsələnin şifahi müsabiqəsidir. Bu zaman hər bir kəs öz fikrini müdafiə edir. İkinci mənada mübahisə – dialoqun elə bir formasıdır ki, bu mübahisə gələcəkdə iştirakçıların münasibətlərinin pozulmasına səbəb ola bilər. Bu isə, iştirakçılarda müzakirə olunan məsələyə daha dərindən müdaxilə etmək, müzakirəni daha ətraflı aparmaq arzusu yaradır.

Mübahisə aparmaq məharəti bizim hər birimiz üçün çox böyük məna kəsb edir, buna görə də mübahisəni ona yaxın olan «disput», «diskussiya», «polemika» kimi anlayışlarla müqayisə etmək məqsədəuyğundur. Disputdan söhbət gedərkən, burada əxlaqi, siyasi, ədəbi, elmi, professional və başqa problemlərin kollektiv müzakirəsi nəzərdə tutulur.

İndiki zamanda disput – hər hansı bir problemin geniş auditoriya qarşısında müzakirəsi, sualların cavabının düzgün həlli və ya bu həllin yollarının aydınlaşdırılmasıdır. Disput ali məktəbdə tələbələrlə aparılan əsas iş formalarından biri, canlı və fəal fikir mübadiləsi, tərbiyə və mədəni inkişaf məsələlərinin kollektiv müzakirəsi üsuludur. Bu, tədris proqramları çərçivəsindən kənar, məktəbdən və dərsdənkənar vaxtda keçirilən, müxtəlif təlim-tərbiyəvi tədbirlərdir.

Disputda iştirakçıların çoxu müstəqil olaraq tribunadan və yaxud öz yerlərindən çıxış edirlər, başqalarının çıxışlarına öz fikirlərini əl çalmaq, replika və ya etiraz nidaları ilə bildirirlər. Qoyulan məsələnin müzakirəsi kollektiv şəkildə aparılır, mübahisələr isə yoldaşlıq xarakteri daşıyır.

Mübahisə nəzəriyyəsinin yaranma tarixi – ideal mübahisənin əsasının yaradılması tarixi olub, qədim dövrlərdən bəri alimlər, filosoflar, din xadimləri arasında geniş yayılmışdır. Mübahisə etmək məharəti Qədim Yunanıstanda eristika adı ilə formalaşmışdır. Bu, özündə tövsiyələr və məsləhətlər yığımını birləşdirirdi ki, bunların vasitəsilə də dinləyiciləri mübahisə olunan suallarla bağlı öz fikrinin düzgünlüyünə inandırmaq mümkün idi. İnandırmaq məqsədi ilə faktiki və məntiqi dəlillərdən başqa, psixoloji, mənəvi, siyasi, üslubi və başqa üsullardan da istifadə olunurdu.

Mübahisə öz ilk başlanğıc mərhələsində müxtəlif fikir toqquşmaları yolu ilə həqiqətin üzə çıxarılması kimi qiymətləndirilirdi. Sonralar, əsasən də sofistlərin eristikası mübahisəni rəqib üzərində qələbə qazanmaq vasitəsinə çevirmişdir. Burada mənəvi cəhətdən heç bir nöqteyi-nəzəri olmayan müxtəlif psixoloji fəndlər işlədilirdi.

Tərbiyə prosesində şəxsiyyətə hərtərəfli təsir göstərmək lazımdır. Həyatda öz mövqeyini tutmaq hər bir gəncin arzusudur. Tələbənin mənəvi keyfiyyətlərini formalaşdırmaqdan ötrü, ona əxlaqi-etik biliklər, ideya-siyasi baxışlarla təsir edərək, onu cəmiyyətdə baş verən hadisələrin səbəbləri haqqında düşünməyə təhrik etmək lazımdır. Baxışlar, cəmiyyətin inkişaf qanunlarının obyektivliyi haqqında təsəvvürlər tələbələrdə məktəb illərində formalaşır. Həyatda fəal mövqe tutmaq üçün hadisələrin dərinliyinə nüfuz etmək və onların mahiyyətini dərk etmək lazımdır. Məsələyə bu baxımdan yanaşıldıqda tələbənin elmi, əxlaqi-etik, ideya-siyasi biliklərə yiyələnməsi mühüm yer tutur.

Pedaqogika elminin müasir inkişaf mərhələsi yuxarı sinif şagirdlərinin mənəvi tərbiyə probleminə də yönəlir ki, bu da gələcək tələbənin elmi dünyagörüşünün formalaşmasına bilavasitə təsir göstərir. Gənclərdə çətinlikləri aradan qaldırmaq bacarığını, məsuliyyət hissini, əməyə mənəvi tələbatı inkişaf etdirmək, onlarda düzlük, vicdan, namus, kollektivçilik, məsuliyyət, vətəndaşlıq, təvazökarlıq kimi xüsusiyyətləri formalaşdırmaq çox vacibdir.

Tələbələrlə disputlar müəyyən əxlaqi məsələ haqqında rəy mübadiləsi şəklində aparılır. Belə mübahisələr tələbələrin əxlaqi görüşlərinə və davranışlarına əhəmiyyətli təsir göstərən iş formalarındandır. Disputlar yanlış əxlaqi təsəvvürlərlə düzgün əxlaqi təsəvvürləri qarşılaşdırmağa və müxtəlif əxlaqi görüşləri bir-biri ilə müqayisə əsasında onların hansının düzgün olmasını müəyyən etməyə imkan verir. Burada çox vaxt müxtəlif rəylər, bəzən, hətta, birbirinə zidd fikirlər ifadə olunur. Lakin bundan ehtiyat etmək lazım deyil, hər bir tələbəyə imkan verilməlidir ki, müzakirə olunan əxlaqi məsələyə öz münasibətini bildirsin, yoldaşlarının rəyi ilə razılaşmadıqda onu inkar edən sübutlar üzərində düşünsün, həmin rəyin düzgün olmadığını sübut etməyə, öz fikrini müdafiə etməyə çalışsın. Disput zamanı rəylərin toqquşması onların tədricən dürüstləşməsinə səbəb olur. Bütün bunlar müzakirə olunan əxlaqi məsələ üzərində hər bir tələbəni dərindən düşünməyə, aydın olmayan məsələləri aydınlaşdırmağa təhrik edir ki, bu da, bir çox məsələlər üzrə əxlaqi görüş və əqidənin təşəkkülünə, eləcə də gələcəkdə işgüzar və akademik ünsiyyət vərdişlərinin yaranmasına kömək edir.

Tələbələrin təlim-tərbiyəsində disput mühüm yer tutur və özünün məqsədi, məzmunu, ideya istiqaməti cəhətindən təlim prosesinin davamıdır. Disputlar ali məktəblə həyat arasında əlaqə yaradır. Belə bir tədbirin tərbiyəvi əhəmiyyəti ondan ibarətdir ki, o, tələbələrin şəxsiyyətinin inkişafına, onların dünyagörüşünün formalaşmasına, onlarda əxlaqi sifətlərin tərbiyə olunmasına, müəyyən biliklər sistemi ilə silahlanmasına, psixi proseslərin inkişafına və təkmilləşməsinə kömək edir.

Müasir dövrdə tələbələrlə insanın mənəvi keyfiyyətləri və onun müasir həyatda tutduğu mövqe haqqında söhbətlər, disskussiya və disputların keçirilməsinin əhəmiyyəti olduqca böyükdür. Gənc nəslə öz həyat tərzini, dünyagörüşünü formalaşdırmaq, onlara həm savadlı, həm də mədəni olmaqla yanaşı, əvvəlki nəslin təcrübəsini müasir baxışlar və hadisələrlə uyğunlaşdırmaqda kömək etmək lazımdır. XXI əsrin gəncləri daha səmimi, cəsarətli, sərbəst, qətiyyətli və romantikdirlər. Bununla belə, onlar qədim adət-ənənələrimizə hörmətlə yanaşır, özünü və ətrafdakıları başa düşməyə can atırlar.

M.M.Mehdizadə «Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları» kitabında yazır: «Elmi mübahisə mənasını verən disput ümumtəhsil məktəblərində çox zaman tərbiyə metodu kimi, bu və ya digər əxlaqi görüşlər haqqında şagirdlərin (yuxarı siniflərdə) fikirlərini öyrənmək, görüşün məna və əhəmiyyətini daha geniş şərh etmək məqsədilə təşkil edilir. … vaxtaşırı

təşkil edilən təlim disputu dərsdə şagirdlərin fəallaşdırılmasına kömək edir ki, bu da təlimin məqsədlərindən biridir» (8, 135).

Disput tələbələrdə yüksək estetik zövq tərbiyə etməklə yanaşı, onlarda əməksevərlik, şüurlu intizam, vətənpərvərlik, kollektivçilik, mərdlik, dostluq, yoldaşlıq kimi nəcib sifətlərin, əxlaqi keyfiyyətlərin formalaşmasına kömək edir.

Hər bir insan özünün ən gözəl və ən nəcib sifətlərini gənclik çağında əldə edir, onun əxlaqı, xarakteri, dünyaya baxışı və mənəvi keyfiyyətləri də məhz bu zaman formalaşır. Gənclik dövrünə qədəm qoymuş ali məktəb tələbələrində yeniyetməlik çağında mənimsənilmiş əxlaqi təsəvvür və anlayışlar, kateqoriyalar zənginləşir və təkmilləşir.

Tələbələr ilə disput təşkil edərkən, onları fəal iştirak etmək üçün qabaqcadan ciddi hazırlamaq lazımdır. Tələbə disputun keçirilmə qaydasını bilməlidir. Disput konkret plan əsasında və əvvəlcədən müəyyən olunmuş vaxtda keçirilməlidir.

Tələbələr disputların müxtəlif mövzularda təşkilinə daha çox maraq göstərirlər. Disputda müzakirə olunan məsələnin inandırıcı olması tələbələrə verilən sualların məqsəd və məzmunundan çox asılıdır. Sualların düzgün qoyuluşu tələbələri fəallaşdırır, onları həyati fakt və müşahidələrə, atalar sözlərinə müraciət etməyə sövq edir.

Disputun mövzusu kinofilmlə və ya kitabla bağlıdırsa, onun əhəmiyyəti olduqca böyükdür. Müşahidələr göstərir ki, bədii və elmi-kütləvi ədəbiyyatlardan istifadə edildikdə disput daha canlı və emosional olur. Bədii ədəbiyyat tələbələrin şüuruna, hissinə və iradəsinə böyük təsir göstərir. Bədii ədəbiyyat tələbələrin əxlaqi təcrübə, vərdiş və davranış normaları qazanmalarına kömək edir. Onlarda əxlaqi anlayışlar, hiss və normalar ayrı-ayrı adamların təsirindən daha çox bədii əsərlərin, bədii obrazların təsiri nəticəsində inkişaf edir.

Disputda tələbələrin görkəmli şəxsiyyətlərlə görüşlərinin təşkil olunması da təlim-tərbiyə işinə əhəmiyyətli təsir göstərir. Buraya, həmçinin milli qəhrəmanlar, əmək adamları da dəvət olunur. Onların söhbətlərini, həyatda baş vermiş maraqlı əhvalatlarını dinlədikcə tələbə bir anlıq özünü onun yerinə qoyur. Bütün bunları o, həyatda görmək istəyir, qarşısına məqsəd qoyur, kim olmaq, hansı sənəti seçmək, kimin yolunu davam etdirmək və s. kimi suallar qarşıya çıxır. Bu suallara cavab axtaran tələbə də öz düşüncələrini bölüşdürür, müstəqil olaraq fikrini ətrafdakılara çatdırmağa nail olur.

## Reference

1. Abbasov A.N. Alizade H.A Pedagogy. Baku: Renaissance, 2000, 202 p.
2. Abbasov A.N.Pedagogy: Summary and schemes. Baku: Maarif, 1995, 62 p.
1. 3.Agayev A.A. The problem of personality formation in the public and pedagogical thought of Azerbaijan. Baku: Europe, 2005, 315 p.
3. Agayev A.A Learning process: tradition and modernity. Baku: Adiloglu, 2006, 138 p.
4. Education Law of the Republic of Azerbaijan. “People’s newspaper”, Baku, September 8, 2009.
5. Education Reform Program of the Republic of Azerbaijan. Baku: 1999, 59 p.
6. Hasratov H.R. Preparation for disputes and methods of conducting them // Young worker, 1981, № 6, p.26-28
7. Mehdizade M.M. Ways to improve the educational process in secondary schools. Baku: Maarif, 1982, 381 p.
8. Mammadli N.B Business and academic communication in the Azerbaijani language. Baku: Science and education, 2021, 510 p.
9. Talibov Y.R Organization and holding of disputes at school. Baku: Maarif, 1970, 53 p.
10. Stolovich L.N Beauty. Good. Truth: An Essay on the History of Aesthetic Psychology. M.: Republic. 1994, 464 p.

Göndərilib: 07.12.2021 Qəbul edilib: 23.12.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/11-14

**Həlimə Ağaşükür qızı Ağayeva**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
müəllim

# ESSE VƏ İNŞA YAZILARININ DİL-ÜSLÜB XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Məqalədə esse və inşa yazılardan bəhs olunur. Nitq mədəniyyəti dilçiliyin praktik sahəsi olub, dildən ünsiyyət vasitəsi kimi istifadə qaydalarını öyrənir. Ana dilinin tədrisində son məqsəd məhz şagirdlərə əldə etdikləri bilikləri savadlı şəkildə düzgün, rabitəli və məzmunlu ifadə etməyi öyrətməkdir. Esselər yalnız şagirdlərin ümumi nitq inkişafının deyil, həm də savadlı yazı vərdişlərinin vasitəsidir. Esse üzərində işin düzgün qurulduğu siniflərdə orfoqrafik savadlılığı da yüksək olur. Onlar yazılışı çətin sözlər işlətməkdən, çətin qaydaları tətbiq etməkdən qorxmurlar. Esse yazılara orfoqrafik cəhətdən hazırlaşmaq leksik hazırlıqla sıx bağlıdır, çünki şagirdlər üçün yeni sözlərin bir çoxu mənası ilə yanaşı, yazılışına görə də anlaşılmaz olur. Məhz bu cəhətdən esselərin yazılmasını daha da çətinləşdirir.

***Açar sözlər:*** *nitq mədəniyyəti, yazı, esse, inşa*

## Language and style features of essays and essays

**Summary**

The article deals with essays and essays. Speech culture is a practical field of linguistics that studies the rules of using language as a means of communication. The ultimate goal of mother tongue teaching is to teach students to express their knowledge competently, accurately, coherently and meaningfully. Essays are a tool not only for students' general speech development, but also for literate writing skills. Spelling literacy is also high in classes where essay work is properly structured. They are not afraid to use difficult words in writing, to apply difficult rules. Spelling preparation for essay writing is closely related to lexical preparation, as many of the new words become incomprehensible to students, as well as their meaning and spelling. This makes it even more difficult to write essays.

***Key words:*** *speech culture, writing, essay, essay*

Yazı mədəniyyəti olmadan gələcək nəsillərə heç nəyi ötürmək mümkün deyildir. Bizim hər birimiz keçmiş haqqında nəyi biliriksə, yazıya borcluyuq. Vaxtilə yazı mədəniyyəti hər bir kəsin, xüsusilə, ziyalıların səviyyəsinin göstəricisi olub. Ziyalı hesab olunan hər bir kəsin bir göstəricisi də onun yazı mədəniyyəti ilə ölçülüb. Yazı mədəniyyətini isə insanlar birdən-birə əxz etməyib, uzun müddət bu istiqamətdə təcrübə keçiblər. İmla, ifadə, inşa, əməli yazılar və s. yazıblar. Bu yazı bacarıqlarının əsası məktəbdə qoyulmuşdur.

Nitqimizin mənalı, zəngin və rəngarəng olması üçün nitq mədəniyyətinin tələb etdiyi kimi, qrammatik cəhətdən düzgün, məntiqli cəhətdən səlis və ana dilində danışmağı bacarmalıyıq. Natiqlik həm də dil mədəniyyətinə söykənir. Mədəni görünmək yox, həqiqətən mədəniyyətli olmalıyıq.

Hal-hazırda Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları I siniflərində isə təkmilləşdirilmiş yeni təhsil proqramları tətbiq olunur. Azərbaycan dili fənni üzrə təkmilləşdirilmiş təhsil proqramının II-IV sinifləri üçün nəzərdə tutulmuş məzmun standartlarında esse yazı növü öz əksini tapmışdır. Sorğulara əsasən məlum oldu ki, müəllimlər bu yazı növünün tədrisi ilə bağlı az məlumatlıdırlar. Onlar əksər hallarda esseni inşa ilə eyniləşdirirlər (25, 53).

İlk növbədə, tutuşdurma, qarşılaşdırma, müqayisə anlayışlarının hər biri haqqında fikir bildirək. Bir çox hallarda onlar sinonim anlayışlar kimi işlənilir, bu isə dolaşıqlığa səbəb olur. Cisim və hadisələrin arasındakı oxşar cəhətlərin aşkara çıxarılması tutuşdurma, fərqli cəhətlərin müəyyənləşdirilməsi isə qarşılaşdırma adlandırılır. Oxşar və fərqli cəhətlərin eyni zamanda üzə çıxarılmasına isə müqayisə deyilir.

Bəs müqayisənin başlıca xüsusiyyətləri və tətbiq qaydaları hansılardır?

Bunların ən mühüm olanlarına diqqət edək. Müqayisəni o vaxt tətbiq etmək mümkündür ki, obyektlər müqayisəyə gələn olsun. Bütün obyektləri bir-biri ilə müqayisə etməyin mümkün olduğunu

düşünmək səhvdir. O obyektləri müqayisə etmək mümkün və faydalıdır ki, onların mahiyyətində, təbiətində oxşarlıq olsun. Bu, müqayisənin ən mühüm xüsusiyyətlərindən biridir.

Müqayisənin başlıca xüsusiyyətlərindən biri də müqayisəyə cəlb edilən obyektlərin mühüm əlamətlərinin götürülməsidir. Bu, həmin obyektlər barədə dərin, hərtərəfli biliyin qazanılmasına imkan verir (2, 56)

Müqayisənin başqa bir xüsusiyyəti ondan istifadə edərkən eyni, vahid əsasın gözlənilməsidir. Yəni obyektlər eyni, vahid əsaslar üzrə müqayisə edilməlidir. Buna əməl etmədikdə bir obyektin bir əlamətə, ikinci obyektin isə başqa əlamətə görə səciyyələndirilməsi həyata keçirilmiş olur. Beləliklə, obyektlər ayrı-ayrılıqda təsvir edilir ki, bu da onların tutuşdurulduğunu, yaxud qarşılaşdırıldığını deməyə əsas vermir.

Obyektlərin arasındakı oxşar, yaxud fərqli əlamətlərin aşkara çıxarılması hələ müqayisənin tamamlanması demək deyildir. Oxşarlığın və fərqin səbəbini açmaq, müqayisə olunanların arasındakı əlaqələri aydınlaşdırmaq, müqayisədən nəticə çıxarmaq, ümumiləşdirmə aparmaq həyata keçirilməli olan mühüm əlamətlərdir. Müqayisə xarakterli mətnlərin inşanın, essenin, məruzənin hazırlanması, ilk növbədə, yazı bacarığının inkişafına əhəmiyyətli təsir edir. Bu iş, həmçinin müstəqil və yaradıcı düşünməyə, müəllifə öz sözünüzü deməyə istiqamətləndirir (1, 342).

Belə yazıları yerinə yetirərkən nələrə diqqət etmək vacibdir?

1. İlk növbədə, mövzunun necə ifadə edildiyinə nəzər salmaq lazımdır. Mövzunun müqayisə tələb edib-etmədiyini müəyyənləşdirmək çətin deyildir. Belə yazılar üçün müəyyənləşdirilmiş mövzularda, adətən, müqayisə sözü işlədilir.

2. Sonra plan tərtib edilir. Plan giriş, əsas hissə, nəticədən ibarət olur.

3. Girişdə mövzu barədə ümumi məlumata, onun işlənməsinin əhəmiyyətinə diqqətin cəlb edilməsi vacibdir. Yaxud mövzu bədii əsərlə bağlı olarsa, girişdə əsər, onun müəllifi barədə yığcam məlumat vermək məqsədəuyğundur.

4. Yazının məzmunu əsas hissəni təşkil edir. Əsas hissədə əhatə olunacaq məsələləri bəndlər şəklində ifadə etmək faydalıdır. Bunu o vaxt uğurla yerinə yetirmək olur ki, müqayisənin hansı əlamətlər üzrə aparılacağı əvvəlcədən müəyyənləşdirilmiş olsun.

5. Yazının sonunda nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması vacibdir.

Qeyd edək ki, inşa yazı ilə esse yazını fərqləndirən bir neçə məqam var. Bəli, esse əksər hallarda həcm etibarı ilə inşadan kiçik olur, amma bu əsas cəhət deyildir. Hər şeydən əvvəl esse tədqiqat xarakterli olmalıdır. Yəni müəyyən mövzu haqqında hissi, psixoloji, ideoloji fikirlər toplusu şagird üçün esse sayıla bilməz.

Essenin ilkin mənası "götür-qoy edərək mühakimə yürütmək" deməkdir. Söz bu mənanı, demək olar, indi də saxlamaqdadır. Yəni müasir anlamda esse müəllifin konkret mövzu ilə bağlı faktları, təəssüratları, fərdi düşüncələri ölçüb-biçərək mühakimə yürütdüyü kiçik həcmli, sərbəst kompozisiyalı yetkin əsərdir.

Essedə problem sərbəst şəkildə qoyulur, seçilən problem təhlil və izah edildikdən sonra müəyyən nəticəyə gəlinir.

Esse yazılarkən aşağıdakı ardıcıllığa riayət edilir:

Şagird mövzu ilə tanış olur. Daha sonra xəyalında yazının planını qurur:

a) giriş;

b) əsas hissə;

c) nəticə.

Təxminən 3-5 cümlədən ibarət giriş hissədə şagird mövzuda gizlənmiş problemin mahiyyətini, onun açıqlanmasını müəyyənləşdirir, fikrin izahı üçün sanki qapı açır.

Verilmiş mövzunun tutumundan və şagirdin yaş səviyyəsindən asılı olaraq essenin əsas hissəsi tezis-arqument formasında qurula bilər. Tezis fikrin bir, yaxud iki cümlə ilə ifadəsi, hansısa müddəanın irəli sürülməsidir. Arqument isə irəli sürülən tezisin gerçək hadisələrlə, faktlarla, tanninmış şəxsiyyətlərin fikirləri ilə əsaslandırılmasıdır. İki arqumentdən istifadə etmək daha yaxşıdır: bir arqument oxucunu inandırmaya bilər, üç və daha çox arqument isə üslubu ağırlaşdırar. Hər tezis və onun arqumentlərlə əsaslandırılması bir abzas təşkil edir. Essenin abzasları arasında da məntiqi əlaqənin olması vacibdir.

Yazının nəticə hissəsində girişə və əsas hissəyə yekun vurulur, araşdırılan problemin indiki vəziyyəti göstərilir (5).

Essenin əsas əlamətləri aşağıdakılardır:

1. Kiçik həcm. Uzun-uzadı izahların verilməsi esse yazı üçün xarakterik deyildir.

2. Konkretlik. Essedə yalnız bir məsələ qoyulur və həmin məsələdən kənara çıxmaq məsləhət görülmür. Zəruri məqamlarda mövzu ilə bağlı qısa haşiyə vermək olar;

3. Kompozisiya sərbəstliyi. Şagird kompozisiyanı mövzudan yayınmamaq və məntiqi ardıcıllığa əməl etmək şərtilə istədiyi formada qura bilər;

4. Üslub aydınlığı. Essedə hədsiz mürəkkəb cümlələrə, dolaşıq fikirlərə, eyni sözlərin tez-tez təkrarlanmasına, yersiz rəsmiyyətə, təmtəraqlı, pafoslu ifadələrə, qeyri-etik deyimlərə yol vermək olmaz. Ədəbi dilin normalarına, orfoqrafiya qaydalarına əməl edilməli, durğu işarələri yerli-yerində qoyulmalıdır.

Müəllimlər esse yazdırarkən şagirdlərə bəzi tövsiyələr verə bilərlər:

– Qısa və aydın yazın;

– Qazanmış olduğunuz bilikləri nümayiş etdirməklə sərbəst düşüncə tərzinizi ortaya qoyun;

– Mövzudakı problemə və onun həlli yollarına öz münasibətiniz olsun.

Bütün bu sadalananlar esse yazını inşadan fərqləndirməkdə müəllimlərə yardımçı ola bilər.

Mühakimə xarakterli inşa və essedə mövzu, problemlə bağlı şəxsi düşüncələr və mühakimələr önəmli yer tutmalıdır. Essenin quruluşunda sərbəstliyə, şəxsi münasibətin ifadəsinə daha geniş yer verə bilər. İnşada irəli sürülən hökmləri, fikirləri təsdiq edən inandırıcı faktlar, dəlillər, sübutlar göstərmək vacibdir. Buna nail olmaq üçün şagird mövzu ilə əlaqədar müxtəlif mənbələrdən – digər fənlər, müstəqil oxunan əsərlər, internet, eləcə də müşahidə və şəxsi təcrübədən və s. bəhrələnir.

Aşağıda yazılan tövsiyələrə əməl etməklə, növündən asılı olmayaraq, inşa və essedə uğur qazanmaq olar.

İnşa və essenin hazırlanması işin bir-biri ilə əlaqəli olan üç mərhələdə aparılmasını tələb edir: yazıya hazırlıq, yazının yerinə yetirilməsi, yazının müzakirəsi və qiymətləndirilməsi.

Yazıya hazırlıq işini mövzuya uyğun qurmaq lazımdır. Odur ki, ilk növbədə, mövzu üzərində düşünmək lazımdır. Əgər mövzu öyrənilən əsərlə bağlıdırsa, həmin əsərə yenidən müraciət etmək, onu təkrar oxumaq lazım gələcəkdir. Bu zaman mövzunun tələbinə xüsusi diqqət yetirilməlidir. Məsələn, mövzu hər hansı əsərdəki obrazın təhlili ilə əlaqədardırsa, onun xarakterindəki mühüm cəhətləri aydınlaşdırmalı, davranış və əməllərini, digər surətlərin, eləcə də, yazıçının bu qəhrəmana münasibətini müəyyənləşdirməyə çalışılmalıdır. Bu mərhələdə, həmçinin yazıya necə başlamağı, hansı cəhətlərə üstünlük verilməli olduğu, toplanılan məlumatı nə cür əlaqələndirmək aydınlaşdırılmalıdır.

Rabitəli nitq inkişafı dedikdə, birinci növbədə, şagirdin öz fikrini səlis, aydın, ardıcıl, yığcam və təsirli şəkildə ifadə etməsi nəzərdə tutulur. Şagird gərək əvvəlcə təsvir edəcəyi faktı yaxşı mənimsəsin, sonra isə onu dil cəhətdən doğru ifadə edə bilsin. Deməli, rabitəli nitq hər bir məzmunun özünəmüvafiq forma ilə ifadə edilməsindən ibarətdir. Nitqə verilən başlıca tələblər aşağıdakılardan ibarətdir: 1. Nitq məzmunca dolğun olmalıdır. Şagird dildən öz fikrini başqalarına çatdırmaq, eləcə də başqalarının fikrini başa düşmək üçün istifadə edir. Fikir olmayan yerdə, onu ifadə etməyə ehtiyac da olmaz; yəni dil də olmaz.

Elə yazı nümunələri vardır ki, orada müşahidə etdiyimizi təsvir etmək, xatırladığımızı nəql etmək bacarığı ilə yanaşı digər bacarıqlar da tələb olunur. Buraya müxtəlif mənbələrdən məlumatlar əldə etmək, onlardan istifadə etmək, onların əsasında yeni məlumatlar yaratmaq və s. daxildir. Belə yazılar inşa yazılar adlanır. Doğrudur, aşağı siniflərdə müxtəlif mövzularda inşa yazılar yazılır. Sonralar isə şagirdlərə bu yazını daha mükəmməl, qaydalara uyğun yazmağın yolları öyrədilir.

İnşaya leksik hazırlıq rəngarəng məntiqi çalışmalar, sözlərin çoxmənalılığı, söz yaradıcılığı, omonimlər, sinonimlər, antonimlər və s. üzrə işin aparılmasını, həmçinin tematik lüğət üzrə işin təşkilini tələb edir.

Deyilənlərdən məlum olur ki, inşaya leksik hazırlığı yalnız şagirdlərin lüğətinin zənginləşdirilməsi ilə məhdudlaşdırmaq səhv olardı. Bu və ya digər nitq şəraitində fikri daha aydın, dəqiq və obrazlı ifadə etmək üçün şagirdə öz lüğət ehtiyatından ən müvafiq gələn sözü seçməyi öyrətmək lazımdır (5, 159).

İbtidai sinif şagirdləri, əsasən, inşanın aşağıdakı növlərindən istifadə etməlidirlər: təsvir xarakterli inşalar; mühakimə xarakterli inşalar; məqalə xarakterli inşalar və s. İfadə yazıların isə cəmi iki növündən, geniş və yığcam növlərindən istifadə olunur. Şagirdlər haqqında danışdıqları və ya yazdıqları obyekti iki cəhətdən düzgün dərk etməlidirlər: onlar mövzunu və qarşıya qoyulmuş məqsədi başa

düşməli, bu iki anlayışı qarşılıqlı əlaqədə verməyi bacarmalıdırlar. Bu məsələ ona görə vacibdir ki, şagirdlər çox vaxt ya mövzudan kənara çıxır, lazım olmayan şeylərdən söhbət açırlar, ya da mövzunu, onun irəli sürdüyü mətləbi əhatə etmir, həddindən artıq qısa yazır və ya danışırlar. Bu tipdən olan nöqsanları aradan qaldırmaq üçün yeni dərslikdə bir sıra zəruri tapşırıqlar verilmişdir.

İnşa yazıya aid xüsusiyyətlərə diqqət yetirdikdən sonra essenin yazılışında aşağıdakı məsələlərə nəzər salaq. Belə ki, esse yazarkən sadalayacağımız məlumatlar daim diqqət mərkəzində saxlanılmalıdır (6).

1.Mövzuya münasibətin dəqiqləşdirilməsi.

Şagird ilk növbədə mövzuya münasibətini, nədən və necə yazacağını dəqiqləşdirir. Esse üçün seçilmiş mövzuya hər şagird öz fərqli münasibətini əks etdirir. Bunun üçün mövzu aydın dərk edilməli, onun əhəmiyyəti, nə üçün maraq doğurduğu aydınlaşdırılmalıdır. Mövzu ilə bağlı ayrıca vərəqdə qeydlər aparılır, yeni ideyalar əks etdirilir.

2.Mövzunun mahiyyətinin aydınlaşdırılması.

Mövzunun mahiyyəti aydınlaşdırılarkən yazıda işlədiləcək açar sözlər seçilir.

3.Məlumatın toplanılması.

Bu mərhələdə essenin mövzusu ilə bağlı məlumat toplanılır. Şagird müxtəlif mənbələrdən əldə etdiyi məlumatları təhlil edir, qeydlər aparır.

4.Planın hazırlanması.

Yazılacaq essenin strukturu, əhatə olunacaq məzmun müəyyənləşdirilir, plan tərtib edilir. Şagirdlərə izah edilir ki, plan tərtibi müəyyən vaxt aparsa da, fikirlərin ardıcıl, yığcam şərhi, toplanmış materialın yerləşdirilməsi baxımından zəruridir.

Giriş – şagird mövzunun adına öz münasibətini bildirir, nədən yazacağını yığcam şərh edir. Essenin əsas hissəsi – mövzunun məğzi şərh edilir, onunla bağlı mühakimə yürüdülür, nümunələr gətirilir, fikirlərin ifadəsində ardıcıllıq gözlənilir.

Nəticə-əsaslandırılmış məntiqi mühakimələr yekunlaşdırılır, şagirdin şəxsi mövqeyi daha qabarıq ifadə edilir.

5.Essenin yazılması.

Hazırlıq mərhələsindən sonra essenin yazılmasına keçmək olar. Essenin başlanğıcından mövzu ilə bağlı faktdan istifadə olunur, əsas fikir qeyd edilir. Yazıda əksini tapacaq suallara nümunələr gətirilir. Şəxsi fikirlər qabarıq ifadə edilir, mülahizələrin əsaslandırılması üçün nümunələr gətirilir. Essedə fikrin sadə cümlələrlə ifadə olunmasına xüsusi diqqət yetirilir. Sadalanan bütün əlamətlər həm essenin özünəməxsus cəhətlərini, həm də inşanın özünəməxsus cəhətlərini göstərir.Məqalədə esse və inşa yazılardan bəhs olunur.və onların yazılmasına həsr olunmuş tədqiqatlara və bu mövzulardan bəhs edən kitab və kitabçalara, məqalələrə rast gəlirik. Nitq mədəniyyəti dilçiliyin praktik sahəsi olub, dildən ünsiyyət vasitəsi kimi istifadə qaydalarını öyrənir. Ana dilinin tədrisində son məqsəd məhz şagirdlərə əldə etdikləri bilikləri savadlı şəkildə düzgün, rabitəli və məzmunlu ifadə etməyi öyrətməkdir.

## References


1. Abbasov A.N., Həsənov S.H. Az söylə, söz söylə (Şərqin şifahi və yazılı sənət abidələrində tərbiyəvi fikirlər). Bakı, Maarif, 1992, 400 s.
2. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı, 1968, s 118.
3. Aslanova Ş.İnşa yazılar. (Şagirdlərdə yaradıcı təfəkkürün formalaşdırılması). Bakı, Təhsil EİM, 2009, 205 s.
4. Cəfərova A. Rabitəli nitqin inkişafında mətnlərin rolu. “Kurikulum”, elmi-metodik jurnal, Bakı, “Şərq Qərb” Nəşriyyatı, 2011, 98 s.
5. Xəlilov Z., Orucova G., Qaragözova N., İsmayılov R., Azərbaycan dili 2. Müəllim üçün metodik vəsait. Bakı, “Altun kitab” nəşriyyatı, 2014, 205 s.
6. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Maarif, 2007, s 69.
7. Cəfərova A. Rabitəli nitqin inkişafında mətnlərin rolu. “Kurikulum”, elmi-metodik jurnal, Bakı, “Şərq Qərb” Nəşriyyatı, 2011, 98 s.
8. http://www.palitra.net.az


Göndərilib: 06.12.2021 Qəbul edilib: 25.12.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/15-18

**Nigar Qurban qızı Hüseynova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
nigar.hvaa@mail.ru

# İNVESTİSİYA REGİONAL TURİZMİN İNKİŞAF AMİLİ KİMİ

**Xülasə**

Məqalədə turizm sənayesinin investisiya inkişafının əsas problemlərindən və perspektivlərindən bəhs edilir. Turizm sənayesində investisiya fəaliyyətinin inkişafının əsas tendensiyaları da təsvir edilmişdir. İnvestisiyaların necə proqnozlaşdırıldığı və planlaşdırıldığı, investisiya prosesinin necə təşkil edildiyi, investisiyaların coğrafi baxımdan hara yönəldildiyi, vəsaitlərin hansı məqsədlər üçün və nəyə yatırıldığı, investorun kim olduğu və layihəni kimin həyata keçirməsi vacibdir.
***Açar sözlər:*** *turizm, investisiya, xarici investisiya, klaster, inkişaf*

## Investment as a factor of development of regional tourism

**Summary**

The article discusses the main problems and prospects of investment development in the tourism industry. The main trends in the development of investment activities in the tourism industry are also described. It is important to know how investments are forecasted and planned, how the investment process is organized, where the investments are geographically directed, for what purposes and what the funds are invested, who the investor is, and who will implement the project.
***Key words:*** *tourism, investment, foreign investment, cluster, development*

Azərbaycan iqtisadiyyatının strukturunda turizm sənayesinin rolu durmadan artır. Turizm dinamik inkişaf edir, təkcə yüksək artım templərini deyil, həm də dərin keyfiyyət dəyişikliklərini göstərir. Hazırda turizm sektoruna investisiyaların cəlb edilməsi onun inkişafı istiqamətində görülmüş işlərdən biridir. İnvestisiya proseslərinin məntiqinin başa düşülməsi investisiya prosesinin müxtəlif mərhələlərində qəbul edilən praktik investisiya qərarlarının adekvatlığını müəyyən edir (1, s. 29). Bu prosesin ən mühüm və həlledici mərhələlərindən biri investisiya resurslarının yatırılacağı müəssisənin seçilməsidir. İnvestisiya obyektinin seçiminə əsasən müəssisənin investisiya cəlbediciliyi kimi kateqoriya təsir edir. Ümumdünya Turizm Təşkilatının məlumatına görə, son onilliklər ərzində xarici ölkələrə turistlərin sayında davamlı artım müşahidə olunur. Zaman-zaman baş verən qlobal və regional böhranlara baxmayaraq, orta hesabla turistlərin xarici kurortlara axını ildə 3-4% artır (3, s.41). Beləliklə, turizmin səmərəliliyi problemi daxili və xarici turizm bazarı çərçivəsində yaranır.

Beləliklə, son illərdə dövlət tərəfindən turizm sənayesini sabitləşdirmək üçün görülən əhəmiyyətli tədbirlərə müvafiq olaraq, turizmin inkişaf tempi arzuolunandır. Eyni zamanda istər hakimiyyət orqanlarında, istərsə də müxtəlif işgüzar dairələrdə turizmin inkişafına maraq iki əsas səbəblə bağlıdır. Birincisi, turizm xidmətlərinin göstərilməsi sahəsində biznesin özü kifayət qədər yüksək gəlirlilik ilə xarakterizə olunur. İkincisi, turizm biznesi öz fəaliyyətinə iqtisadiyyatın əlaqəli sahələrinin, məsələn, mehmanxanalar, sanatoriyalar, pansionatlar, istirahət mərkəzləri, mədəniyyət və istirahət obyektləri, ictimai iaşə müəssisələri, nəqliyyat və təmir-tikinti şirkətləri, reklam agentlikləri və s. müəssisələrinin təşkilini cəlb edir. Turizm sahəsində investisiya fəaliyyəti onun maliyyələşdirilməsinin əsas mənbələrindən biridir. İnvestisiyaların belə növləri var: birbaşa və ya real portfel, qeyri-maddi aktivlərə investisiya, insan kapitalına investisiya, innovativ investisiya, vençur texnologiyasına investisiya. Fərdi turizm təşkilatı səviyyəsində investisiyalar investorların fərdi məqsədlərinə çatmaq üçün müxtəlif alətlərdə müəyyən dövr üçün maliyyə qoyuluşlarını təmsil edir. İnvestorlar bu konkret halda götürməyə hazır olduqları kommersiya riskinin dərəcəsinə görə təsnif edilirlər. İnvestor kimi banklar, investisiya fondları, sığorta şirkətləri, maliyyə və sənaye qrupları çıxış edir. İstənilən turizm şirkəti üçün hər bir investor müəyyən ölçü və ya maliyyə investisiyalarının axını ilə əlaqələndirilir. Eyni zamanda həm borc

götürülmüş, həm də öz vəsaiti qoyula bilər. İnvestisiya fəaliyyətinin bu səviyyəsində təhlil edilən əsas göstəricilər bunlardır:

-gözlənilən mənfəət (investisiya edilmiş vəsaitlərin rentabelliyi);
-investisiyaların geri qaytarılma müddətləri;
-sərmayə qoyulmuş müəssisəni idarə etmək üçün investorun hüquqları;
-investorun kommersiya riskinin dərəcəsi (4, s.69).

İnvestisiya prosesinin bütün bu şərtlərinin optimallaşdırılması ilə hər hansı bir turizm müəssisəsinin inkişaf yolları və sürətləri əlaqələndirilir. İnvestisiya ehtiyacının səbəbləri müxtəlif ola bilər. Onlar əsasən üç növə bölünür:

- mövcud maddi-texniki bazanın yenilənməsi (mehmanxana və restoranlarda xidmət sinfinin yaxşılaşdırılması üçün müasir rezervasiya sistemlərinin tətbiqi və ya otaqlarda avadanlıqların təkmilləşdirilməsi);
- turizmdə satış və xidmətlərin həcminin artırılması;
- yeni fəaliyyət növlərinin mənimsənilməsi (turizm sənayesi bazarına yeni turist məhsulu və ya yeni xidmət növü ilə daxil olmaq) (4, s.71).

Kommersiya təşkilatı üçün vəsait əldə etməyin daha sərfəli yolu fərdi və institusional investorlardan vəsait cəlb etməkdir. Beləliklə, əlavə maliyyə resursları cəlb etmək üçün təşkilat investorları pullarını ona yatırmağa inandırmaq üçün kifayət qədər yüksək səviyyəli investisiya cəlbediciliyinə malik olmalıdır. Bu gün hər hansı qəbul edən ölkə üçün xarici investisiyanın təsirini qiymətləndirməyə imkan verən vahid konsepsiya yoxdur. Bununla belə, xarici kapitalın milli iqtisadiyyata təsirinin əsas müsbət tendensiyası qeyd olunur: bu, milli kapitalın canlanmasında, investisiya proseslərinin gücləndirilməsində, eləcə də iqtisadi artımın gücləndirilməsində ifadə olunan ölkənin iqtisadi artımının təşviqidir. Yeni texnologiyaların tətbiqi ilə texniki tərəqqinin sürətləndirilməsi, kapital idxal edən ölkənin bazarı ilə münasibətlərdə inkişaf etmiş bazar münasibətləri təcrübəsinin ötürülməsi, habelə müasir sahələrə diqqət yetirməklə və milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi ilə ifadə olunur. Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilərə nəzər yetirək:

**Cədvəl 1**

**Turizm üzrə sahələrin əsas göstəriciləri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər | 49 449 | 43 477 | 46 837 | 53 222 | 58 972 | 49 019 |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyər, milyon manat | 2 437,3 | 2 746,1 | 3151,2 | 3405,5 | 3723,9 | 1370,1 |
| Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə | 4,5 | 4,5 | 4,5 | 4,3 | 4,5 | 1,9 |
| Turizm üçün xarakterik sahələrə yönəldilən investisiyalar, milyon manat | 1063,9 | 363,0 | 267,3 | 229,7 | 133,7 | 79,3 |

***Mənbə: https://www.stat.gov.az/***

Cədvəl 1-dəki məlumatların təhlili göstərir ki, turizm sahəsinə qoyulan investisiyaların nisbətən aşağı rentabelliyi, bu sahəyə investisiyaların cəlb olunmasının vacibliyini gündəmə gətirir. Xarici investisiyaların milli iqtisadiyyata təsirinin müsbət cəhəti investisiya fəallığının səviyyəsini yüksəltməklə iqtisadi baxımdan artmasına təsiridir. Xarici investisiyalar ölkə iqtisadiyyatında məhdud investisiya resursları şəraitində investisiya boşluğunu qismən doldurur, həmçinin investisiya fəallığını artırır ki, bu da ölkənin ÜDM-nin artmasına səbəb olur. Milli inkişaf prioritetlərindən asılı olaraq, milli iqtisadiyyata mənfi təsirləri minimuma endirmək üçün xarici investisiyaların cəlb edilməsi siyasətinin

formalaşdırılmasında açıqlıq və proteksionizmin ağlabatan vəhdətinə, habelə xarici investisiyalara ciddi şəkildə differensiallaşdırılmış və strukturlaşdırılmış yanaşmaya riayət edilməlidir. Onu da qeyd etmək lazımdır ki, xarici sərmayə (eləcə də daxili) multiplikator effektinə görə təkcə turizm sənayesində deyil, həm də əlaqəli sənayelərdə artıma səbəb ola bilər. Xarici investisiyalar milli iqtisadiyyatın "yeni" inkişafı üçün əsas rolunu oynayır:

1.idxalçı ölkədə yeni işçi qüvvəsi tipi formalaşır, işçilər yeni iş şəraitinə uyğunlaşırlar;
2.yeni iş yerləri açılır;
3.xarici investisiyalar hesabına məşğulluğun payı əhəmiyyətli dəyərə çatır (2, s.86).

Dünya təcrübəsi göstərir ki, birbaşa xarici investisiyaların həcmi praktiki olaraq heç vaxt milli iqtisadiyyata qoyulan ümumi investisiyanın 12-15%-ni keçmir. Fikrimizcə, regionda turizmin inkişafında maraqlı olan biznes strukturları üçün əlverişli şəraitin yaradılması son dərəcə vacib və zəruridir. Turizmə xarici investisiyalar birbaşa kapital axını əldə etməkdə üstünlüklərə malikdir:

- bu xarici investisiyaların bütövlükdə turizm iqtisadiyyatına müsbət təsirini stimullaşdırır;
- qəbul edən ölkənin ixracının artırılması (gəlmə turizminin axınının artırılması);
- idxal mallarına tələbatın sabitləşməsi (daxili və sosial turizm obyektlərinə yükün bərabərləşdirilməsi) (5, s.117).

Yerli turizm sahibkarlığının artması, yerli turizm infrastrukturu müəssisələrinin inkişafı, qəbul edən ölkənin beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, habelə əhalinin mədəni səviyyəsinin yüksəldilməsi, əmək ehtiyatlarının ixtisasının yüksəldilməsi, yüksək ixtisaslı kadrların cəlb edilməsinin mümkünlüyü, idarəetmə və yeni texnologiyaların tətbiq edilməsi, bütün bunlar həm də regionun üstünlüyüdür. Turizm sahəsində investisiya fəaliyyətinin onun maliyyələşdirilməsinin əsas mənbələrindən biri olmasına baxmayaraq, eyni zamanda, bütövlükdə, vahid sosial-iqtisadi sistem kimi turizm müəssisələrinə qoyulan investisiyaların kompleks qiymətləndirilməsinin xüsusiyyətləri öz əksini tapmışdır. Turizm müəssisələrinin fəaliyyət və inkişaf xüsusiyyətlərini nəzərə almaqla seçilmiş həllərin iqtisadi qiymətləndirilməsinin müasir üsullarına malik olmaq bu sahədə düzgün investisiya siyasətinin işlənib hazırlanması üçün zəruridir. Turizmdə investisiya dedikdə, investisiyadan arzu olunan məbləğdə gəlir əldə etmək üçün uzunmüddətli kapital qoyuluşu şəklində (bir ildən artıq müddətə) həm ölkə daxilində, həm də xaricdə maliyyə resurslarından istifadə edilməsi başa düşülür. Turizmə sərmayə qoyuluşu kapitalın köməyi ilə yeni turizm obyektlərinin yaradılması, habelə mövcud olanların müasirləşdirilməsi və ya yenidən qurulması, müəyyən növ turizm məhsulları istehsal etmək və göstərmək qabiliyyətinə malik olan turizm obyektlərinin yaradılması prosesidir. İnvestisiyalar turizm xidmətlərinin keyfiyyətini yüksəltməklə yanaşı, daha böyük həcmdə turizm xidmətləri istehsal etmək və göstərmək qabiliyyətinə malik yeni turizm obyektlərinin yaradılması ideyalarının reallaşdırılması prosesini təmin edir. İnvestisiyaya tələb və təklif olduqda, satıcıların və alıcıların, eləcə də investisiya prosesinin digər iştirakçılarının maraqları üst-üstə düşərsə, yəni maraqlar balansı olarsa, investisiyalar elə olur. Bu şərtlər yerinə yetirilərsə, turizm sektoruna investisiyalar həm turizmlə əlaqəli biznes iştirakçıları (otellər, restoranlar, turizm şirkətləri), həm də turistlər üçün faydalı olacaqdır (2, s.153).

İnvestisiyaların formal məqsədləri mənfəəti artırmaq, istehsalın miqyasını artırmaq istəyi, cəmiyyətdə güc və nüfuz istəyi, sosial və ekoloji problemlərin həlli, iş yerlərinin qorunması və ya artırılması ola bilər. Bu məqsədlər çox vaxt dəqiq müəyyən edilmir, prioritet olaraq əlaqələndirilmir və ya onların həyata keçirilməsinin mümkünlüyü yoxlanılmır. Buna görə də, formal məqsədlərdən konkret hədəf göstəriciləri müəyyən etməklə real investisiya məqsədlərini formalaşdırmaq vacibdir. Məsələn, mənfəətin artırılması kimi rəsmi məqsəd bir sıra göstəricilər şəklində konkretləşdirilməlidir ki, onun vasitəsilə onun əldə olunma dərəcəsini müəyyən etmək mümkün olacaqdır.

## Nəticə

İnvestisiya formalarının seçiminə xarici faktorlar əhəmiyyətli təsir göstərir, ən mühümləri maliyyə bazarında inflyasiya və faiz dərəcələri, təbii və siyasi amillərdir. Daxili amillərə aşağıdakılar daxildir:

-turizm müəssisəsinin ölçüsü (miqyası);
-turizm müəssisəsinin maliyyə vəziyyəti;
-funksional oriyentasiya;

-turizm müəssisəsinin elmi-texniki siyasəti;
-investisiya siyasəti;
-idarəetmənin təşkilati-hüquqi forması.

Bununla belə, investisiyalar özlüyündə investisiya layihəsinin uğurlu inkişafı və həyata keçirilməsi üçün kifayət qədər amil deyil. Başdan sona bütün investisiya prosesi vacibdir: investisiya layihəsinin ilkin təhlili, onun həyata keçirilməsi prosesində monitorinqi və korreksiyası, başa çatdırılması. Beləliklə, investisiyalar turizm sənayesinin inkişafında, ölkə və xarici vətəndaşların turizm xidmətlərinə olan ehtiyaclarını ödəmək üçün geniş imkanlar verən müasir rəqabətqabiliyyətli turizm kompleksinin yaradılmasında zəruri amildir.

## References

1. Huseynov I., Afandiyeva N. Basics of tourism. Baku: “Mars-Print” publishing and printing enterprise, 2007. 442 p.
2. Balabanov I.T., Balabanov A.I. Economics of Tourism: Moscow: Finance and Statistics, 2007.176 p.
3. Gulyaev V.G. Tourism: Economy and Social Development. Moscow: Finance and Statistics, 2009. 304 p.
4. Zhdanov V.P. Investment mechanisms for regional development. Kaliningrad. BIEF, 2006.355 p.
5. V.A. Kvartalnov Tourism: theory and practice. Moscow: Finance and Statistics, 2008.256 p.

**Rəyçi: dos.A.İsfəndiyarov**

Göndərilib: 09.12.2021 Qəbul edilib: 24.12.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/19-23

**Nazrin Afiq Zeynalova**
Baku State University
master
zeynalovanezrin@mail.ru

# LEGAL LIABILITY FOR COPYRIGHT INFRINGEMENT IN THE ADVERTISING INDUSTRY

**Summary**

One of the most important and developing problems of the 21st century is copyright infringement. İn analyzing the topic of legal liability for copyright infringement in the advertising industry, we will analyze the essence of advertising in the advertising industry, existing copyright in the advertising industry, how to protect copyright and what is the legal liability for copyright infringement in the advertising industry.

***Key words:*** *advertising, copyright, subjects, object, sanction, infringement, liability for infringemen,, civil liability, criminal liability, administrative responsibility*

## Reklam sənayesində müəlliflik hüquqlarının pozulmasına görə hüquqi məsuliyyət

**Xülasə**

21-ci əsrin mühüm və inkişaf etməkdə olan problemlərindən biri də məhz müəlliflik hüquqlarının pozulmasıdır. Reklam sənayesində müəlliflik hüquqlarının pozulmasına görə hüquqi məsuliyyət mövzusunu təhlil edərkən reklam və reklam sənayesinin mahiyyətini, reklam sənayesində mövcud olan müəllliflik hüquqlarını, müəlliflik hüquqlarının necə qorunması və reklam sənayesində müəlliflik hüquqlarının pozulmasına görə hansı hüquqi məsuliyyətin olmasını araşdıracayıq.

***Açar sözlər:*** *reklam, müəlliflik hüquqları, subyekt, obyekt, sanksiya, hüquqi pozuntu, hüquqi məsuliyyəti, mülki məsuliyyət, cinayət məsuliyyəti, inzibati məsuliyyət*

## İntroduction

The term of advertising is a Latin word "reclamera", means "to shout”. Advertising is a means of information and communication that calls for the sale or use of any product or the use of the service or the support of the one's ideas.

According to Article 2.0.1 of the Law of the Republic of Azerbaijan "On Advertising" advertising - information disseminated in order to attract the attention of the advertisement consumer to the object of advertising in any form using various means and methods, to form and maintain interest, to promote the product in the market and to stimulate sales. (6, p.1)

However, an advertised product or service must be not prohibited by law and must attract the attention of advertising consumers by methods and means not prohibited by law. The scope of non-prohibited methods and means of such products or services is specific for each country and is regulated by legislation. In the event of a violation of these rules, the subject who commits the violation is liable for legal liability in accordance with the legislation.

Consists of the advertising industry are advertising agencies, advertising companies, media, brand managers, designers and other advertising-related people. An unnecessary product or service in the advertising industry can be presented to us as desirable and irreplaceable. This is also the success and main goal of the activities of advertisers, advertising creators and manufacturers operating in the advertising industry.

The subjects of advertising are reflected in Article 2.0.4 of the Republic of Azerbaijan “On Advertising". According this norm subjects of advertising are advertiser, advertisement creator, advertisement producer, advertising agent, advertisement publisher and advertising consumer. (6, p.2)

What are the copyrights in the advertising industry? In general, what is copyright? what is the importance of copyright protection in our society, what is legal liability and what is the legal liability exists for copyright infringement in the advertising industry?

According to Article 5 of the Law of the Republic of Azerbaijan "On Advertising" advertising it is the object of copyright and related rights within the conditions stipulated by the Law of the Republic of Azerbaijan "On Copyright and Related Rights". (7, p. 4)

Advertising must meet the basic conditions for copyright. Non-plagiarized, original advertisements are protected by copyright. Advertising in the advertising industry is protected as a subject of copyright and causes legal liability in case of copyright infringement.

Copyright infringement in the advertising industry can be two forms: To plagiarize a product belonging to another person in whole or in part. Another form of Copyright infringement to use the intellectual work of another without permission or consent.

Advertising as an object of copyright has three main conditions. These are the following:

1.Advertising as an object of copyright must belong to the list specified in Article 5 of the Republic of Azerbaijan "On Copyright and Related Rights".

2.Advertising must be original. İt mean, must protect its identity, not duplicate or plagiarize any advertising object.

3.Advertising must meet the fixation requirement. That is, advertising should be reflected on the permanent object. For example, we can mark the image on paper, board, leather, fabric and other object.

The advertising object that meets these conditions is protected as an object of copyright and causes legal liability in case of copyright infringement.

If any of these conditions are not met in the advertising object, it will not be possible to protect it.

In this case, when the rights of the advertising subject are violated, advertising subject will not be able to use the means of legal protection. It should be noted that, the idea is not protected by copyright. In order to protect an advertising object, an idea must be described as a form of expression.

For example, for the creation of an advertising object, the advertising creator named A spoke of the idea of advertising creator named B, which has nowhere to describe the content, general design of advertising, the advertiser named B prepared on its own behalf in its name and in the event of a spread, the advertiser A has no right to raise or complain about the existing advertising object. Because, the advertiser named A hasn't reflected the idea by any video, voice recording or other means. There will be no evidence during a court dispute in this situation.

There of, to prevent copyright infringement in the advertising industry the object of advertising must be constructed in accordance with the conditions of copyright.

Legal liability for copyright infringement in the advertising industry is the result of infringement. In case of violation of the legal norm in force, the advertising subject is subjected to sanction to restore the rule established by the state and away from unlawful behavior to avoid accountability. The responsibility of this subject also plays a warning role for other people in society.

Legal liability protects the interests of the subject of advertising to society and the state. Legal liability in the advertising industry occurs as a result of copyright infringement and against a person who violates the right against the person who violated the right is a coercive measure of the state.

Legal liability in copyright infringement in the advertising industry has been determined by the state, it is applied by the competent authorities. In the advertising industry, the subject violating the copyright does not comply with the requirements of regulatory legal acts established by the state, and violation of the laws entails legal liability.

There are two approaches to copyright infringement in the advertising industry:

**Positive** – positive legal responsibility for copyright infringement in the advertising industry is derived from the legal duty to implement a positive, useful function and social role for society. That is, the presence of legal responsibility prevents copyright infringement in the advertising industry when viewed in a positive sense. It makes development much easier in society and social life. In a positive approach, legal responsibility is more of a deterrent function.

**Negative** – arises in connection with copyright infringement in the advertising industry. It is connected with the imposition of legal sanctions by the state. These sanctions can include fines,

correctional labor, imprisonment, or restriction of liberty. In a negative approach, legal responsibility for copyright infringement in the advertising industry has an educational function.

In the advertising industry, the subject of advertising has property and non-property rights, which are also protected by legislation. Refers to the property rights of the subject of advertising is direct or indirect reproduction of the advertising object, distribution of originals or specimens of the advertising by sale or other transfer of property right, transfer for commercial rental of original or specimens of the advertising, import of specimens of the advertising object for the purpose of distribution inculiding specimens produced on consent of author or owner of exclusive copyright, right of public display, right of public performance, right of public communication, right of communication to the public by broadcasting, right of communication to the public by cabel, right of translation, right of adaptation, right of interactive public communication. In the advertising industry, non-property rights of the subject of advertising may also be violated. Those rights are right of authorship, right of name, right of respect, right to disclosure.

Contradictions in copyright infringement in the advertising industry are mainly found in advertising films, advertising design, formation, advertising registration, logos, brochures, advertising texts, packaging and labeling forms, sizes, colors, posters, store name formation, and the advertising industry. May occur in concluded copyright agreements.

One of the most common cases of copyright infringement in the advertising industry is related to images reflected on the advertising object. Sometimes these images are displayed on advertising objects without the author's permission, even if they belong to licensed, patented persons. These cases also lead to violation of the rights of the author.

There are three main types of legal liability for copyright infringement in the advertising industry.

1. Criminal liability;
2. Administrative liability;
3. Civil liability.

Criminal liability for copyright infringement in the advertising industry arises for a criminal offense committed. The subject of advertising must have committed a crime or participate in the commission of a crime.

Article 165 of the Criminal Code of the Republic of Azerbaijan reflects criminal liability for infringement of copyright or related rights. According to Article 165.1 of the Criminal Code, illegal use of copyright or related legal objects or publication of another's scientific, literary, artistic or other work under one's own name or misappropriation of another's authorship, illegal reprinting of such work and or distribution, as well as coercion to co-authorship, if as a result of these actions caused significant damage - shall be punished by a fine in the amount of one thousand to two thousand manats or by public works for three hundred twenty to four hundred eighty hours. (3, p. 147)

Similar acts under Article 165.2 of the Criminal Code:

“165.2.1. when committed again;

165.2.2. When committed by a group of individuals or organized groups — from two thousand manat to four thousand manat or with corrections for up to two years, or with imprisonment for up to two years, or with imprisonment for up to two years”. (The term "significant amountof damage" provided for in the Code means an amount exceeding one thousand manats.) (3, p. 147)

The commission of a violation of the law provided for by the Criminal Code, which has all the elements of a crime, creates criminal liability. Criminal liability in the case of copyright infringement is the state's reaction to the prosecution of the perpetrator and the application of criminal measures.

Depending on the degree and severity of copyright infringement in the advertising industry, in addition to criminal liability, there is also administrative liability. An administrative violation of copyright infringement is the basis of administrative liability. Administrative liability for copyright infringement in the advertising industry consists of the imposition of administrative penalties on the perpetrators. An administrative penalty is a measure of copyright infringement. Administrative liability is a form of legal liability for administrative offenses committed by citizens and officials.

According to Article 185 of the Code of Administrative Offenses of the Republic of Azerbaijan, for violation of copyright and related rights, a fine in the amount of eighty to one hundred and fifty manats

is imposed in case of a small amount-pirated copies, as well as materials, equipment used in the preparation (production) and distribution of pirated copies and other means. ("A small amount of damage "means up to one thousand manat.) (2, p. 139)

In the advertising industry, civil liability is property, property, as if substituting. Because in the advertising industry, the definition of civil liability for copyright is the restoration of the rights of infringed persons. In civil law liability, usually, the size of the property must correspond to the amount of damage incurred.

In the advertising industry, civil liability for copyright causes harm to the subject of advertising if they do not fulfill or duly execute the obligation. At the same time, a violation of civil liability is leads to a violation of commodity-money relations in society.

The application of civil liability in violation of copyright in the advertising industry is a sanction aimed at preventing violations of law, eliminating its consequences.

Violation of the contract and other obligations may include the property of the advertising subject who committed a civil offense. This has a negative impact on the country's economy and civil society.

Civil law liability for copyright infringement in the advertising industry is contractual and non-contractual. This civil law liability is based on the principle of compensation for damage caused by a copyright infringing subject.

Civil legal liability for copyright infringement in the advertising industry can be defined as undesirable consequences of property nature, sanctions that create additional burden on the person who committed copyright infringement during copyright infringement in the advertising industry.

In civil law, civil law sanctions applied for violation of copyright in the advertising industry include penalties, fines, compensation for damages and others.

According to paragraph I of Article 30 of the Constitution of the Republic of Azerbaijan, everyone has the right to intellectual property. Copyright, inventive law and other types of intellectual property law are protected by law.

As advertising is a form of intellectual labor, copyright infringement in the advertising industry also violates the constitutional rights of advertising subjects.

There are court guarantees for copyright infringement in the advertising industry. Any advertising subject whose rights have been infringed may claim material and moral damages for copyright infringement.

Summarizing the above, we conclude that in the advertising industry there is a legislative body that protects copyright and the authorized body that controls the rights where Intellectual Property Agency. Why is copyright infringement in the advertising industry in the Republic of Azerbaijan and other countries and it is impossible to prevent its infringement.

In our opinion, rapid development of science and technology, innovation, rapid access of people to information through social networks and internet resources lead to development in the advertising industry. This increases the number of advertising subjects and their interest in advertising. As long as the advertising industry exists, rights are also violated.

Thus, such accessibility of internet resources and social media makes it difficult to prevent copyright infringement. It is impossible to prevent piracy of advertising objects through social networks. Although many social networks warn users of copyright infringement, in most cases, social networks infringe copyright.

The law enforcement mechanism for infringing on the rights in the advertising industry is weak. In order for the law to work, it should not remain formal. At present, legal liability is provided for in the legislation in cases of violation of the law and the norm that protects these relations. So, the state actually fulfilled the duties assigned it. In this case, neglect of advertising entities leads to copyright infringement.

## Conclusion

Most copyright infringed advertising entities do not try to recover infringed rights. Some groups are not interested in restoring non-property rights when they are violated, because they use advertising for commercial purposes. They regard the restoration of their rights as a waste of time and money. Some

groups do not know what copyright they have in the advertising industry. To prevent this, it is necessary to educate the authors of advertising and other people. Copyright infringement is mainly due to ignorance. The only way to prevent this is to educate people in a way that will interest them. All responsibility should not be imposed on the state, responsibility should be divided equally between the author and the state.

The Intellectual Property Agency, which controls copyright infringement, should increase control by interacting with other bodies, copyrights in all countries of the world must collect recognized and registered objects in a single database through an electronic system.

Also, in addition to sanctions provided for copyright infringement in the advertising industry, cash prizes should also be applied. The reward must be taken from the offender as a sanction and given to the author or other person who discovers the infringed rights. This method will be stimulating and it will help in the detection and control of any copyright. It is known that the author whose rights have been violated has the right to claim civil and material damages. However, the right holder is not interested in requesting compensation for violation of his rights in cases of administrative nature or in the event of a small amount of damage or this increases the burden on the courts. The cash reward will help reduce the burden on the courts, prevent copyright infringement and strengthen control.

## Reference

1.Civil Code of the Republic of Azerbaijan, № 779-IQ, Baku, 1999.
2.Code of Administrative Offenses of the Republic of Azerbaijan, № 96-VQ, Baku 2016.
3.Criminal Code of the Republic of Azerbaijan, № 787-IQ, Baku, 1999.
4.Kamran İmanov "İntellectual property and moral rights", Baku 2016.
5.Kamran İmanov "The role of intellectual property rights in the Azerbaijan, Baku 2016.
6. Law of the Republic of Azerbaijan "On Advertising", № 1281-IVQ, Baku, 2015.
7.The Republic of Azerbaijan "On Copyright and Related Rights", № 115-IQ, Baku, 1996
8.WIPO Intellectual Property Handbook (WIPO Publications, 2004, 2nd edition, reprinted 2008), pp 41
9.Bentley, Nicholas (2004). Distributed Intellectual Property Rights Available at
10. http://www.commonrights.com (Accessed on 05-01-2013)

**Rəyçi: h.f.d. E.Qocayev**

Göndərilib: 05.12.2021 Qəbul edilib: 25.12.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/24-29

**Aybəniz Pərviz qızı Yəhyalı**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
aybeniz.yahyali@gmail.com

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ AZƏRBAYCAN TARİXİNİN PARLAQ SƏHİFƏSİDİR

**Xülasə**

Vətən müharibəsinin uğurlu sonluğu bölgədə qüvvələr nisbətini dəyişdi, yeni reallıq yaratdı. İndi biz tək deyilik. Qardaş Türkiyə artıq yanımızda, siyasi masadadır. Qarabağda atəşkəsə türk əsgəri də nəzarət edəcək. Ankaradan ən yüksək səviyyədə mesajlar gəlməkdə davam edir: biz Azərbaycanın yanında olmağa davam edəcəyik. Bu siyasi-mənəvi dəstək gücümüzə güc qatır, Ermənistanın havadarlarını müdaxilədən çəkindirir. Azərbaycan və Türkiyə prezidentlərinin bir-birinə qardaş deyə müraciət etməsi, ay-ulduzlu bayraqlarımızın yanaşı dalğalanması dostlarımız üçün fəxarət, bədxahlarımıza göz dağıdır. Bu gün 30 il davam edən status-kvo da yoxdur. Status məsələsi gündəlikdən çıxıb. Əvəzində Qarabağın dağılmış şəhər və kəndlərinin bərpası planlarının icrası başlayıb.

Dünyadakı çoxsaylı münaqişələrin və müharibələrin gedişinə nəzər salsaq görərik ki, son nöqtəni güclü tərəf qoyur. Azərbaycan xalqının Qarabağ uğrunda 44 günlük Vətən müharibəsi buna ən yeni nümunədir. Ötən 17 ildə güc topladıq, düşmənin başını dəmir yumruqla vurub əzdik. Otuz il davam edən işğala, ədalətsizliyə 44 gündə son qoyuldu.

***Açar sözlər:*** *arxiv, sənəd, Qarabağ, tarix*

## The Second Karabakh War is a bright page in the history of Azerbaijan

**Summary**

The successful end of the Patriotic War changed the balance of forces in the region and created a new reality. Now we are not alone. Brother Turkey is now with us at the political table. A Turkish soldier will also monitor the ceasefire in Karabakh. Messages continue to come from Ankara at the highest level: we will continue to stand by Azerbaijan. This political and moral support strengthens us and prevents the supporters of Armenia from interfering. The address of the Presidents of Azerbaijan and Turkey as brothers, the waving of our moon and star flags are a source of pride for our friends and an eye for our villains. Today, there is no status quo that lasts for 30 years. The status issue is off the agenda. Instead, the implementation of plans to restore the destroyed cities and villages of Karabakh has begun.

If we look at the many conflicts and wars in the world, we can see that the end is coming. The 44-day Patriotic War of the Azerbaijani people for Karabakh is the latest example of this. Over the past 17 years, we have gathered strength, crushed the enemy's head with an iron fist. Thirty years of occupation and injustice were ended in 44 days.

***Key words:*** *archive, document, Karabakh, history*

Tarixdən də məlum olduğu kimi ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti son üç əsri əhatə etmişdir.

1905-1906-cı illərdə Rusiyada baş verən iğtişaşlardan fürsət kimi istifadə edən ermənilər, Bakı, İrəvan, Yelizavetpol (Gəncə) və Tiflis quberniyalarında dinc azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişlər. Erməni silahlı dəstələri İrəvan-Naxçıvan-Zəngəzur-Qarabağ və Qazax-Gəncə istiqamətlərində yerləşən azərbaycanlı yaşayış məskənlərinin əhalisini qırmaqla, qovmaqla və həmin ərazilərdə erməniləri məskunlaşdırmaqla gələcəkdə qurmaq istədikləri "Böyük Ermənistan" dövlətinin əsasını qoymaq istəyirdilər. XIX əsrin 90-cı illərində xarici dövlətlərin təhriki ilə Türkiyə ərazisində baş qaldıran erməni üsyanlarının yatırılmasından sonra 400 mindən artıq erməni (onların bir çoxu silahlı idi) cənubi Qafqaza axışmışdı. Qaçqın erməni ailələrini məskunlaşdırmaq üçün erməni kilsəsi, erməni siyasi partiyaları və erməni ziyalıları birgə "çıxış yolu" tapmışdılar: silah gücünə, kütləvi qırğınlar törətməklə azərbaycanlıları öz tarixi-etnik torpaqlarından qovmaq, boşaldılan ərazilərdə erməni ailələrini məskunlaşdırmışdılar**.** 1897-ci il Ümumrusiya siyahıyaalmanın nəticələrinə görə, İrəvan quberniyasında

mövcud olan 1301 kənddən 959-da türklər, 342-də ermənilər məskunlaşmışdı. İrəvan şəhərinin daxil olduğu İrəvan qəzasında mövcud olan 221 kənddən 151-də türklər, 55-də ermənilər, 15 kənddə isə ermənilərlə türklər qarışıq şəkildə yaşayırdılar. Azərbaycanlı kəndləri üzük qaşı kimi İrəvan şəhərini əhatə edirdi. Ona görə də ermənilərin törətdiyi qırğınlar İrəvandan başlayaraq ətraf bölgələrdə davam etdirilmişdi.

Araşdırmaların nəticəsi göstərir ki, 1905-1906-cı illərdə sayları on min silahlıdan artıq olan erməni birləşmələri Bakıda, İrəvan şəhərində və onun ətraf kəndlərində, Eçmiədzin (Üçkilsə), Şərur-Dərələyəz və Naxçıvan qəzalarında, Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının Gorus, Qapan (Qafan) və Qarakilsə (Sisyan) nahiyələrində, Şuşa, Cavanşir, Cəbrayıl, Qazax qəzalarında, Tiflis şəhərində və Borçalıda kütləvi qırğınlar törətmiş, 200-dən artıq yaşayış məntəqəsini viran qoymuşlar.

1918-ci il oktyabrın 30-da imzalanan Mudros sazişinə əsasən türk qoşunlarının Cənubi Qafqazdan geri çəkilməsindən sonra ermənilərin İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı kütləvi qarət-qırğınları daha da geniş vüsət almışdır.

Ümumiyyətlə, 1918-1920-ci illərdə erməni silahlı dəstələri tərəfindən Şamaxı qəzasında 58, Quba qəzasında 112, Gəncə quberniyasında 323 (o cümlədən, Zəngəzurda 166, Qarabağda 157), İrəvan quberniyasında 300, Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyona yaxın əhali öz tarixi-etnik torpaqlarından didərgin salınmışdır. Ümumiyyətlə, 1905-1920-ci illərdə təkcə indiki Ermənistan ərazisində 500-dən artıq azərbaycanlı kəndləri dağıdılmış, onların böyük əksəriyyəti erməni yaşayış məntəqəsinə çevrilmişdi. Başqa sözlə,1918-1920-ci illərdə Azərbaycanlılar 2,5 dəfə azalmış, ermənilərin sayı isə təqribən 4 dəfə artmışdı.

1918-1920-ci illərdə Ermənistanda azərbaycanlılara qarşı sözün həqiqi mənasında soyqırım törədildiyi qənaətinə gəlmək üçün arxivlərdə və həmin dövrün mətbuatında kifayət qədər faktlar mövcuddur.

Ermənilərin XIX-XX əsrlərdə azərbaycanlılara qarşı törətdikləri soyqırım və deportasiya aksiyalarına hüquqi-siyasi qiymət vermək məqsədiliə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 26 mart 1998-ci ildə “Azərbaycanlıların soyqırımı haqqında” fərman imzalamış və bütün soyqırım faciələrini yad etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırım günü elan edilmişdir.

1947-ci il dekabr ayının 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar çıxarır.

Stalin tərəfindən 1948-1953-cü illərdə həyata keçirilən azərbaycanlıların növbəti deportasiyası zamanı ermənilərin xüsusilə diqqət mərkəzində saxladıqları məsələ iqtisadi, sosial və mənəvi cəhətdən güclü, strateji əhəmiyyətli azərbaycanlı yaşayış məntəqələrinin boşaldılması idi. Bu səbəbdən ilk mərhələdə İrəvan şəhəri (indiki Yerevan şəhəri) yaxınlığınldakı yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmiş, sonra isə rayon mərkəzləri, ətraf kənd və qəsəbələrin əhalisi köçürülmüşdür. Deportasiyaya məruz qalan əhalinin bir hissəsi Ermənistanın dağ rayonlarında yaşadığı üçün Kür-Araz ovalığındakı iqlim şəraitinə çətin alışmışdır. Bu səbəbdən də Kür-Araz ovalığına köçürülmüş on minlərlə azərbaycanlı arasında kütləvi ölüm halları qeydə alınmışdır.

Digər tərəfdən, Ermənistandan köçürülən bir nəfər də azərbaycanlı Dağlıq Qarabağ ərazisinə buraxılmamışdır. Əksinə "Böyük Ermənistan" ideyasının həyata keçirilməsi istiqamətində bu ərazinin azərbaycanlılardan boşaldılması işi planlı surətdə davam etdirilmiş və daxili köçürmə adı ilə 1949-cu ildə Dağlıq Qarabağdan 132 ailə (549 nəfər) Azərbaycanın Xanlar rayonuna köçürülmüşdür.

Eyni zamanda Azərbaycan yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı həyata keçirilmişdir. 1947-1953-cü illərdə azərbaycanlılar yaşayan 60 məntəqənin adı dəyişdirmişdir. Ümumiyyətlə isə, 1921-1988-ci illərdə Ermənistanda yüzlərlə türk mənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir.

Deportasiya zamanı ermənilərin həyata keçirdikləri hiyləgərlik isə ondan ibarət idi ki, rayon və şəhərlərin əhalisi az sayda azərbaycanlı qalmaq şərti ilə köçürülmüşdür. Azlıqda qalan əhali isə növbəti mərhələdə - Ermənistan ərazisinin tamamilə azərbaycanlılardan "təmizlənməsi" əməliyyatı zamanı ölkədən çıxarılmışdır.

1988-ci ilin yanvarından etibarən "türksüz Ermənistan" siyasəti planlı şəkildə həyata keçirilməyə başlanmışdır. Ermənistan hökuməti, "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətmişlər.

Etnik təmizləmə nəticəsində Ermənistanın 185 yaşayış məntəqəsi boşaldılmış, 250 mindən artıq azərbaycanlı və 18 min kürd öz ev-eşiyindən zorla qovulmuş, 217 azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir. Bunlardan 49 nəfəri ermənilərin əlindən qaçarkən dağlarda donmuş, 41 nəfər qəddarlıqla döyülərək qətlə yetirilmiş, 35 nəfər işgəncələrlə qətlə yetirilmiş, 115 nəfər yandırılmış, 16-sı güllələnmiş, 10 nəfər əzab və işgəncələrə dözməyərək infarktdan ölmüş, 2 nəfər xəstəxanada həkimlər tərəfindən öldürülmüş, digərləri isə suda boğularaq, asılaraq, elektrik cərayanına verilərək, başları kəsilərək qətlə yetirilmişdir.

Tarixi baxımdan bu münaqişənin kökləri Rusiya çar hökumətinin yardımı ilə alban kilsə muxtariyyətinin, sonradan isə Qafqaz albanlarının kilsəsinin ləğv edildiyi, onun dilinin, mədəniyyətinin hərtərəfli istifadədən çıxarıldığı və onlar haqqında tarixi yaddaşın (xəritələrin, arxivlərin, maddi-mədəni əşyaların) məhv edildiyi dövrə gedib çıxır. Daha sadə desək, bu, alban tarixinin, eləcə də Səfəvilər (1502-1736) və Qacarlar (1737-1925) sülalələrinin dövründə Azərbaycan dövlətçilik nümunələri tarixinin saxtalaşdırılması idi. Həmin yarımmüstəqil və ya faktiki olaraq, onilliklərlə müstəqil olmuş ərazi vahidləri (bəylərbəyilikləri, xanlıqlar, sultanlıqlar, camaatlıqlar və s.) müasir Azərbaycan və Ermənistanın ərazisində əsrlər boyu mövcud olmuşdu. Azərbaycanlıların və ermənilərin xalq yaddaşında, bir çox digər dövlətlərin tarixi sənədlərində və arxivlərində, müxtəlif milliyyətli alimlərin elmi araşdırmalarında ermənilərin XVIII əsrin sonu-XIX əsrin birinci yarısında Azərbaycan dövlət vahidlərinin ərazilərinə kütləvi şəkildə köçürülməsinin əsl tarixi əks olunmuşdur. Həmin hadisələr Rusiya imperiyasının Qacarlar dövləti və Osmanlı imperiyası ilə hərbi qarşıdurması və beləliklə, Qafqazda yeni ərazilərin birləşdirilməsi zamanı çarın birbaşa göstərişi ilə baş verirdi. Çar hökuməti tərəfindən zəbt edilmiş və ya "dinc yolla" birləşdirilmiş Azərbaycan xanlıqlarında "xristian elementini" gücləndirmək məqsədilə Qacarlar dövlətindən (müasir İrandan) və Osmanlı imperiyasından on minlərlə erməninin Cənubi Qafqaza köçürülməsi təşkil olunmuş və bu proses maliyyələşdirilmişdir. Həmin rəsmən tənzimlənən və qeyri-rəsmi köçürülmə, eləcə də köçürülənlərə verilən imtiyazlarla bağlı bir çox rəsmi, ədəbi və digər sənədlər qorunub saxlanılmışdır. Bu prosesə qədər ermənilər qeyd edilən ərazilərdə, o cümlədən Rusiya imperiyasının özündə, əsasən, "tacir elementi" və kifayət qədər fəal "erməni" kapitalı ilə təmsil olunmuşlar. (166)

2020-ci il isə Azərbaycan tarixinə şanlı hərflərlə yazıldı.30 il işğal altında qalan tarixi və əzəli torpaqlarımız müzəffər ordumuz sayəsində öz doğma sahiblərinə geri qaytarıldı.Belə ki,sentyabrın 27-də saat 6 radələrindən başlayaraq təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmrilə Ermənistan Silahlı Qüvvələri Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının təmas xəttində sıx məskunlaşma olan kəndləri ilə yanaşı, cəbhə xəttindən yüz kilometrlərlə aralıda yerləşən Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrinin mülki infrastruktur obyektlərini ballistik raketlərlə, fosforlu və kasetli bombalarla, klaster silahlarla atəşə tutaraq mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə 6 başladı. Ərazisinə minlərlə mərmi düşən Tərtər şəhəri İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərinə bənzəyirdi. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar olaraq, Prezident fərmanı ilə 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edildi. 28 sentyabrda imzalanmış sərəncama görə isə respublikada qismən səfərbərlik elan edildi. Azərbaycan Ordusunun həyata keçirdiyi "Dəmir Yumruq" əməliyyatının ilk günlərində Füzuli və Tərtər rayonları istiqamətində, o cümlədən Murovdağda bir çox strateji məntəqələr azad edilərək irimiqyaslı hərbi əməliyyatlar davam etdirildi. Oktyabrın 3-də şimal cəbhəsində irəliləmək üçün yüksək əhəmiyyətə malik olan Tərtərin Madagiz kəndi işğaldan azad edilərək orada Azərbaycan bayrağı qaldırıldı. Elə həmin gün kəndin tarixi adı da Prezident tərəfindən bərpa edildi – Suqovuşan. Cənub cəbhəsi boyu irəliləyərək oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da isə Füzuli rayonunun Hadrut qəsəbəsini düşməndən təmizləyən Azərbaycan Silahlı Qüvvələri Xocavənd rayonunun ərazisində əlverişli mövqeləri ələ keçirdi. Rusiyanın təşəbbüsü ilə münaqişə tərəflərinin xarici işlər nazirlərinin Moskva şəhərində 9-10 oktyabr görüşündə atəşkəslə bağlı razılıq əldə etməsinə baxmayaraq, bir neçə saatdan sonra Ermənistan tərəfi yenidən hücum cəhdi göstərdi. Əks-hücuma keçən Azərbaycan Silahlı Qüvvələri oktyabrın 17-də Füzuli şəhərini işğalçılardan təmizlədi, 18-də Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdı, 20-də isə Zəngilan şəhərini azad etdi. Hər qarış torpaq Azərbaycanın igid əsgər və zabitlərinin canı və qanı bahasına azad edilirdi. Oktyabrın 22-də Zəngilanın 7 Ağbənd qəsəbəsini azad etdikdən sonra Arazın o tayındakı

soydaşları tərəfindən alqışlarla müşayiət olunan Azərbaycan əsgərləri İranla dövlət sərhədini tam nəzarətə götürdülər. Erməni hərbi birləşmələrinin geri oturdulması N.Paşinyanı bu dəfə danışıqlar üçün ABŞ-a üz tutmağa məcbur etdi. Oktyabrın 24-də ABŞ Dövlət katibi müavininin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin birgə görüşündən sonra münaqişə tərəfləri arasında 10 oktyabr tarixli Moskva bəyanatına uyğun olaraq humanitar atəşkəs haqqında razılıq əldə olundu. Lakin ertəsi günün səhər saatlarında düşmən ölkənin ordusu yenidən Azərbaycanın mövqelərinə hücum etdi. Məşhur "aypara" və ya "qurd tələsi" taktikası ilə əks-hücuma keçən Azərbaycan hərbçiləri Laçın dəhlizinə doğru irəliləyərək Dağlıq Qarabağdakı separatçı ünsürlərlə Ermənistanı birləşdirən əsas magistral yolun 10 kilometrliyindən artilleriya vasitəsilə buraya nəzarət etməyə başladı. Oktyabrın 25-də Qubadlı rayonu işğaldan azad edildi.(5-7)

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 02.12.2020-ci il tarixli Sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edilmişdir.

Ermənistan 30 ilə yaxın müddətdə işğalda saxladığı Azərbaycan torpaqlarının geniş miqyasını, hətta hərbi təyinatı olmayan torpaqları da minalamışdır. 10 Noyabr 2020-ci il tarixli Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında Üçtərəfli Bəyanatda razılıg□ın əldə olunmasına baxmayaraq, Ermənistan minalanmış xəritə və sxemləri təhvil verməkdən imtina edir. Bununla da, 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərini, Avropa Konvensiyasının 2-ci və 8-ci maddələri, 1 saylı Protokolun 1-ci maddəsi və 4 saylı Protokolun 2 (1) və 3 (2) maddələrində müəyyən edilmiş təminatlar da daxil olmaqla, beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozur.

Minalı bölgələr insanların həyatı üçün təhlükə yaratmaqla yanaşı, torpaqlardan səmərəli istifadə işinə də mane olur. Xeyli müddətdir ərazilərin minalardan təmizlənməsinə baxmayaraq, mütəmadi olaraq baş verən mina partlamaları nəticəsində mülki vətəndaşların xəsarət almaları və həlak olma faktları artır.

10 noyabr 2020-ci il tarixdən hazırkı vaxtadək işğaldan azad edilmiş ərazilərdə minaya düşmələri nəticəsində 23 mülki şəxs həlak olmuş, 36 mülki şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Prezident Ilham Əliyev dəfələrlə öz çıxışlarında qeyd etmişdir; İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur".(1)

Üç ölkə arasında əldə edilən razılaşma Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması baxımından tarixi əhəmiyyət daşıyır, eyni zamanda, bəyanatla Qarabağa heç bir status verilməyəcəyi, Naxçıvanla Azərbaycanın quru əlaqəsinin reallaşacağı, Naxçıvanın blokadadan çıxacağı, habelə qardaş Türkiyənin sülhməramlı prosesdə iştirak edəcəyi bildirilir.

Ümumiyyətlə, böyük siyasi, diplomatik səy hesabına əldə edilən bütün bu uğurlar Azərbaycanın tarixi qələbəsi, işğalçı Ermənistanın və dünya erməniliyinin isə ağır, ölümcül məğlubiyyətinin ifadəsidir.

Ekspertlərin fikrincə, üç dövlət başçısının imzaladığı birgə bəyanat Azərbaycan üçün milli təhlükəsizlik və milli həmrəylik məsələsi olaraq, respublikamızın gələcək siyasi, sosial-iqtisadi inkişafını şərtləndirdi. Çünki ərazi bütövlüyümüzün işğalçı tərəfindən pozulması 30 il ərzində ölkəmizin sürətli tərəqqisinə mənfi təsir göstərirdi, məcburi köçkünlərimizin həyat tərzində natamamlıq kompleksi yaradırdı. Bu həssas məsələyə beynəlxalq təşkilatların, nüfuzlu dünya dövlətlərinin lazımi qiymət verməmələri də münaqişənin birdəfəlik həllini ləngidirdi. Yuxarıda vurğulandığı kimi,

cənab Prezidentin 17 il ərzində gərgin siyasi fəaliyyəti, xalqımızın sarsılmaz həmrəyliyi, rəşadətli ordumuzun güc-qüdrəti, cəsarəti, nəhayət, öz müsbət nəticəsini verdi. Beləliklə, Qarabağın azadlığı uğrunda günbəgün möhkəmlənən və əvvəllər tarixin heç bir dönəmində bugünkü yekdilliyi fəth etməyən ümummilli həmrəyliyi Azərbaycanı Böyük Qələbəyə qovuşdurdu. Bu uğur, bu qələbə naminə Vətən oğullarımız son nəfəsinədək vuruşdu, canından belə keçdi, Şuşa qalasını fəth etdi.(3)

Azərbaycan Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə 30-a yaxın dünyanın aparıcı mediasına müsahibələri və çıxışları, bəyanatları, xarici jurnalistlərlə mətbuat konfransı, dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələri ilə görüşü, habelə mühüm beynəlxalq platformalarda nitqləri, müzakirələrdə iştirakı aydın göstərir ki, ölkə rəhbəri təkcə dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə deyil, həm də dövlətin informasiya siyasətinə yeni strateji baxış nümayiş etdirir. Prezident İlham Əliyevin yeni informasiya strategiyası şəffaflıq, obyektivlik, sistemlilik, operativlik kimi prinsiplərə əsaslanır, milli maraqların müdafiəsi, ölkə həqiqətlərinin müasir üslubda dünya ictimaiyyətinə çatdırılması, cəmiyyətin hərtərəfli məlumatlandırılması, ictimai rəyə hörmət kimi mühüm amillər üzərində qurulub. Ermənistanın Azərbaycana qarşı vandal əməlləri heç də bu dövlətin faşist xisləti ilə bağlı deyil. Erməni barbarları ölkəmizə yönəltdikləri vəhşiliyi ona görə edirdilər ki, bu torpaqlar, bu şəhər və kəndlər onların deyildi. Onlar gec-tez ərazinin sahiblərinin qayıdacaqlarını yaxşı anlayırdılar.(3-4)

44 günlük Dağlıq Qarabağ müharibəsinin mediada işıqlandırılmasının təhlili onu göstərdi ki, bir çox xarici media orqanlarında erməni əsilli jurnalistlər çoxluq təşkil edir və onların müəllif olduğu yazılarda münaqişəyə qərəzli yanaşmalar açıq şəkildə hiss olunur. Həmçinin inkişaf etmiş ölkələrdə erməni lobbisinin KİV-ə təsiri də çox güclüdür. Hətta düşmən tərəf bəzi qanlı döyüşləri "müharibə cinayəti" kimi təqdim edərək, media vasitələrini qalibin əleyhinə yönəldə bilər. Ancaq mətbuat bütün konfliktləri obyektiv şəkildə işıqlandırmalıdır ki, əsl həqiqət gələcək nəsillərə də aydın olsun.

Dağlıq Qarabağ regionu və ətraf rayonlarda baş verən silahlı toqquşmaları, Azərbaycan ərazisinin silah gücü ilə parçalanmasını, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsini bu ərazilərdə məskunlaşmış ermənilərin öz müqəddəratını təyin etmək kimi qiymətləndirmə cəhdləri beynəlxalq hüququn əsas prinsiplərinə zidd idi və həqiqəti əks etdirmirdi. Bütün bunlardan çıxış edən Prezident İlham Əliyev dünyanın ən nüfuzlu qurumlarının və ölkəmizdə keçirilən beynəlxalq məclislərin tribunalarından davamlı olaraq bəyan edirdi ki, Azərbaycan dövləti öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç bir halda imkan verməyəcək. Elə buna görə də ötən ilin payızında çoxillik sülh danışıqlarının dalana dirəndiyi və işğalçı Ermənistanın hərbi təxribatlarının davam etdiyi bir şəraitdə beynəlxalq hüququn həmin müddəalarını əsas tutaraq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində ifadə olunmuş, 27 il yerinə yetirilməmiş tələbləri Azərbaycan dövləti özü hərbi yolla gerçəkləşdirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda "Dəmir yumruq" adı altında həyata keçirilən Vətən müharibəsi Qarabağ uğrunda II savaşı xalqımızın tarixi Zəfəri ilə sona çatdırdı. Artıq Qarabağ münaqişəsi və onun qanlı səhifələri olan Qarabağ müharibələri arxada qalmış, tarixə çevrilmişdir. (5)

Vətən müharibəsi dövründə Azərbaycana ən böyük dəstək qardaş Türkiyədən gəldi. Bu mənəvi dəstəyin ən böyük nəticəsi və qarşılıqlı münasibətlərin daha da möhkəmləndirilməsində Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Şuşa bəyannaməsinin çox böyük tarixi əhəmiyyəti var.Bu bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bəyannamədə göstərilir ki,tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.Həmçinin tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Qarabağ zəfəri Türkiyə-Rusiya münasibətlərinə də yeni çalarlar əlavə etmiş, uzlaşma və əməkdaşlığın başqa regionlarda da həyata keçirilməsi üçün fürsətlər ortaya çıxmışdır. Ermənistan bu müharibənin məğlub tərəfi olsa da onlar üçün də aparılan yayılmacı, işğalçı siyasət nəticəsində içinə düşdükləri təcrid vəziyyətindən qurtulmaq, iki böyük qonşu dövlətlə münasibətləri normallaşdıraraq iqtisadi inkişafa nail olmaq imkanı meydana gəlmişdir. Əlbətdə bunun üçün əvvəlcə Ermənistan Türkiyə və Azərbaycanın ərazi bütövlüyünü tanımalı, böyük sülh sazişini imzalamağa hazır olmalı və Zəngəzur dəhlizinin açılmasına mane olmamalıdır.

Son onilliklər ərzində baş vermiş texnoloji inqilabların həyatımızın bütün sahələrini sürətlə dəyişdiyi kimi hərbi sahədən də yan ötməyib. Azərbaycanın 44 günlük müharibədə əsasən müasir silahlanmaya görə qalib gəlməsi bu inqilabın göstəricisidir. Bəzi ölkələr bu inqilaba çağırış kimi baxsalar da, digərləri bunu imkan kimi dəyərləndirir.Həmçinin İkinci Qarabağ müharibəsinin təsirlərindən biri də kiçik dövlətlərin böyük güclər qarşısında öz milli maraqlarını müdafiə etmək baxımından daha çox güclənmək potensialı ilə bağlıdır. Bu yeni vəziyyət nəinki kiçik ölkələrin müdafiə imkanlarını artıracaq, həmçinin böyük dövlətlərin hərbi müdafiə xərclərini azaldacaq və onları danışıqlar vasitəsi ilə həll yolunu axtarmağa sövq edəcək.

## Reference


1. İrəvan Xanlığı, Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, Bakı 2010, (Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, t.e.d. prof. Yaqub Mahmudovun elmi redaktorluğu ilə), (Irevan Khanate, Russian occupation and resettlement of Armenians to the lands of Northern Azerbaijan, Baku 2010, (Honored Scientist, Corresponding Member of ANAS, edited by Prof. Yagub Mahmudov)
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI, (Office of the President of the Republic of Azerbaijan PRESIDENTIAL LIBRARY)
3. Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ muharibəsi)-dim.gov.az(Patriotic War for Karabakh (Second Karabakh War) -dim.gov.az
4. https://genprosecutor.gov.az
5. İlham Əliyev- "İkinci Qarabağ müharibəsi zəfərimizdir"-Azərbaycan müəllimi- 2021, 20 avqust (Ilham Aliyev - "The Second Karabakh War is our victory" - Azerbaijani teacher - 2021, August 20)
6. Vaqif Bayramov- "İkinci Qarabağ müharibəsi-dövlətçilik tariximizin ən şərəfli səhifəsi". Xalq qəzeti,2020 24 noyabr(Vagif Bayramov - "The Second Karabakh War - the most glorious page in the history of our statehood". People's newspaper, 2020 November 24)
7. "İkinci Qarabağ müharibəsi haqqında həqiqətlər bütün dünya ictimaiyyətinə çatdırılmalıdır" Xalq qəzeti, 2021, 10 sentyabr ("The truth about the Second Karabakh War must be conveyed to the detriment of the whole world " People's Newspaper, 2021, September 10)
8. Faiq İsmayılov. Xalq qəzeti. -2021. - 23 may. -№ 105. (Faig Ismailov.People's Newspaper 2021 May 23)
9. https://www.virtualkarabakh.az/
10. https://apa.az/az/xeber/siyasi
11. *https://www.trt.net.tr*
12. *https://aircenter.az ›*


**Rəyçi: dos. İ.Səfərova**

Göndərilib: 10.12.2021 Qəbul edilib: 26.12.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/30-33

**Nigar Məhyəddin qızı Mehdiyeva**
Bakı Dövlət Universiteti
magistrant
nigar.mehdiyeva01@gmail.com

# НАРУШЕНИЕ АРМЯНАМИ НОРМ МЕЖДУНАРОДНОГО ГУМАНИТАРНОГО ПРАВА ВО ВРЕМЯ II-ОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

## XÜLASƏ

Ümumilikdə 44 gün davam edən İkinci Qarabağ müharibəsinin tərəflərindən biri olan Ermənistan müharibənin aparılmasına dair beynəlxalq hüququn norma və prinsiplərini kobud qaydada pozaraq çoxsaylı müharibə cinayətləri törətmişdir. Bu müharibə cinayətləri bir daha Ermənistanın təcavüzkar dövlət olduğunu, beynəlxalq hüquqa hörmət etmədiyini göstərmiş olur. Bu cinayətlərin təşkilinə görə məsuliyyəti Ermənistanın hərbi-siyasi hakimiyyəti daşıyır və onların məhkəmə qarşısına çıxarılaraq mühakimə olunması təmin edilməlidir. Beynəlxalq ictimaiyyət bu hüquqazidd əməllərin cəzasız qalmasına imkan verməməli və sadalanan bütün mümkün mexanizmlər vasitəsilə cinayətkarların cəzalandırılması üçün Azərbaycana dəstək nümayiş etdirməlidir.

***Açar sözlər:*** *İkinci Qarabağ müharibəsi, müharibə cinayətləri, pozuntu, məsuliyyət, beynəlxalq humanitar hüquq, mülki əhali*

## Summary

Armenia, one of the parties to the Second Karabakh War, which lasted a total of 44 days, committed numerous war crimes in gross violation of the norms and principles of international law on the conduct of war. These war crimes once again show that Armenia is an aggressor state and does not respect international law. The military-political authorities of Armenia are responsible for the organization of these crimes, and they must be brought to justice. The international community must not allow these wrongdoings to go unpunished and must support Azerbaijan in punishing the perpetrators through all possible mechanisms.

***Key words:*** *The Second Karabakh War, war crimes, violations, responsibility, international humanitarian law, civilian population*

Не желая мириться с поражением во Второй карабахской войне, которая привела к полному восстановлению территориальной целостности Азербайджана, Армения продолжала совершать различные военные преступления, игнорируя нормы международного гуманитарного права. Безнаказанность различных категорий международных преступлений, совершенных Арменией во время Первой карабахской войны и соглашения о прекращении войны, а также отсутствие внимания, уделяемого этим действиям со стороны мирового сообщества, позволили Армении вновь совершить подобные преступления. Поэтому в нынешней ситуации важным вопросом стало определение того, какие военные действия и методы Армении приводят к жертвам среди гражданского населения, какие правовые нормы считаются нарушениями этих действий и к какой юридической ответственности они приводят. В кратчайшие сроки виновные будут привлечены к ответственности и наказаны только путем последовательного выполнения определенных юридических процедур.

Для того, чтобы точно охарактеризовать военные преступления, совершенные Арменией во время Второй карабахской войны, очень важно дать определение военным преступлениям в целом и их составным элементам. Военное преступление - это международное преступление, которое криминализируется в зависимости от методов ведения войны и является незаконным по международному праву. По мнению профессора Алиева, более правильно оценивать военные преступления как нарушение международного гуманитарного права в целом (2, с.101). Соглашаясь с этим подходом, следует добавить, что в целом действия, которые можно

рассматривать как широкое нарушение международного гуманитарного права, как во время вооруженных конфликтов, так и во время прекращения огня, следует рассматривать как военные преступления.

Объектом военных преступлений являются правила ведения войны, установленные нормами международного гуманитарного права. Помимо основного объекта, при совершении некоторых видов военных преступлений, вред наносится и дополнительным объектам. Дополнительные объекты, которые затрагиваются в ходе военных преступлений, включают здоровье, безопасность, жизнь, права собственности, защиту окружающей среды, рациональное использование определенных видов природных ресурсов, обеспечение экологической безопасности людей и т. д.

Объективный аспект военных преступлений предполагает действие или бездействие. Примеры военных преступлений, совершаемых бездействием, включают непредоставление военнопленным или другим лицам, находящихся по защитой, справедливого и нормального судебного разбирательства или непринятие каких-либо по оздоровлению раненных или заключенных. Умышленное причинение вреда здоровью заложников, гражданских лиц или лиц, непосредственно не участвующих в военных действиях, а также нападения на гражданские объекты, т.е. объекты, не связанные с военной необходимостью и т.п. совершаются в результате конкретных практических действий.

Следует отметить, что только умышленное совершение военных преступлений привлекает к ответственности субъекта преступления. Субъект этих преступлений в основном носит общий характер, но совершение военных преступлений специальным субъектом также не исключается. В этом случае специальный субъект - это должностные лица, уполномоченные издавать приказы, связанные с законами и правилами ведения войны. Приказы о нарушениях законов и обычаев войны в той или иной форме могут принимать не только военные, но и политическое руководство страны. Однако трибуналы в Нюрнберге, Токио и Гааге подтвердили, что ведущая роль во время войны и вооруженного конфликта принадлежит военному командованию. Это связано с централизацией управления, единым командованием и воинской дисциплиной (5, с.219).

Требования международного права, в частности Конвенции 1968 года о неприменении срока судебного преследования за военные преступления и преступления против человечности, не устанавливают предельного срока для судебного преследования военных преступников. Неприменение срока уголовного преследования является одной из отличительных черт военных преступлений от других общественно-опасных деяний. Именно это и позволяет нам осуждать военно-политические власти Армении за тяжкие преступления, совершенные не только во время Второй Карабахской войны, но и в Первой, а также во время режима прекращения огня.

Наиболее точное и эффективное разделение военных преступлений было проведено в Римском статуте Международного уголовного суда 1998 года. В статье 8 Римского статута, озаглавленной «Военные преступления», дается отдельная классификация действий, которые представляют собой серьезные нарушения положений Женевских конвенций от 12 августа 1949 года, а также военных преступлений, которые могут быть совершены международными и немеждународными вооруженными силами. Римский статут выступал в качестве оптимального международного источника, который можно было использовать для выявления военных преступлений, а также способствовал единообразному определению области военных преступлений во внутреннем законодательстве государств.

Как упоминалось выше, агрессор Армения, понесшая тяжелые потери на поле боя во время 44-дневной Второй Карабахской войны, нарушила практически все нормы и принципы международного гуманитарного права и совершила многочисленные тяжкие преступления. Некоторые из этих тягчайших преступлений были направлены против мирных жителей и гражданских объектов, чтобы уравновесить их потери. В этой статье перечислены лишь некоторые из совершенных военных преступлений.

Нападения Армении на мирных жителей и гражданские объекты являются явным нарушением статьи 8 (b) Римского статута, в которой говорится, что «преднамеренные

нападения на гражданских лиц в целом или на лиц, непосредственно не участвующих в боевых действиях», являются военными преступлениями. В ходе активных боевых действий агрессивные атаки в основном были направлены на города Барда, Тертер, Гянджа, Мингячевир, Агджабади. Среди атак, направленных на гражданское население, наиболее смертоносными были взрывы 11 и 17 октября в Гяндже и взрывы 28 октября в Барде. В результате первого нападения на город Гянджа было убито 10 мирных жителей, а во втором нападении 17 октября было убито 13 мирных жителей. В результате ракетного обстрела центра Барды 29 октября погиб 21 мирный житель. По данным Генеральной прокуратуры Азербайджанской Республики, в период с 27 сентября по 10 ноября в результате ракетных обстрелов со стороны Армении территории Азербайджана было убито 93 мирных жителей, а 410 мирных жителей получили ранения.

В соответствии со статьей 51 Дополнительного протокола № 1 к Женевским конвенциям от 12 августа 1949 года гражданское население должно находиться под общей защитой от опасностей, создаваемых военными операциями. Стороны в конфликте, помимо других норм международного права, должны соблюдать требования, изложенные в статье 51 Протокола: гражданские лица и отдельные лица не должны подвергаться нападениям, насилию или угрозам, направленным на распространение террора среди гражданского населения. Согласно этой статье, гражданские лица должны быть защищены, если они не принимают непосредственного участия в боевых действиях. При этом запрещены атаки неизбирательного характера, например нападения, которые не направлены на конкретные военные объекты.

В нарушение требований Женевской конвенции 1949 года о защите прав человека и основных свобод, применение ракеты «Скад», использованная при ракетном ударе по городу Гянджа, которая привела к гибели большого числа мирных жителей и повреждению гражданских объектов, в свою очередь, нарушило и статью 8 пункт b Римского статута[4]. Согласно данному пункту, запрещается применение оружия, боеприпасов, техники и методов ведения войны, которые вызывают чрезмерные повреждения или ненужные страдания или которые являются неизбирательными по своей сути в нарушение норм международного права вооруженных конфликтов. Следует отметить, что ракета “Скад” полностью соответствуют пункту b статье 8.

Одним из тягчайших преступлений, упомянутых в статье 8 пункта b) Римского статута, является организация участия детей в возрасте до пятнадцати лет в войне. Тот факт, что данное злодеяние было совершено армянской стороной, подтверждается рядом фактов. Из распространенных в интернете видеороликов видно, что армянская сторона-агрессор ставит под угрозу жизнь даже несовершеннолетних, превращая их в орудия уродливых игр и становясь субъектом еще одного военного преступления. Недопустимость участия детей в возрасте до пятнадцати лет в ведении военных действий нашло свое отражение и в Декларации о защите женщин и детей в чрезвычайных ситуациях и вооруженных конфликтах от 1974 г.

IV Женевская конвенция о защите гражданского населения во время войны обеспечивает правовую защиту детей во время международных вооруженных конфликтов. На дипломатической конференции 1949 года впервые были приняты нормы международного гуманитарного права в связи с немеждународным вооруженным конфликтом. Эти нормы распространяются как на детей, так и на тех, кто не участвует в боевых действиях (5, с.60).

В то же время статья 77 Протокола № 1 к Женевским конвенциям от 12 августа 1949 г. гласит, что стороны в вооруженном конфликте принимают все возможные меры для предотвращения прямого участия детей в возрасте до пятнадцати лет в конфликте и воздерживаются от зачисления их в свои вооруженные силы. При вербовке из числа лиц, достигших пятнадцатилетнего возраста, но которым еще не исполнилось восемнадцати лет, стороны, участвующие в конфликте, стремятся отдавать предпочтение лицам более старшего возраста.

Одним из конкретных преступлений, совершенных Арменией также является осквернение трупов. Мы видели наглядные свидетельства этого во время Первой карабахской войны, в том числе во время режима прекращения огня. С другой стороны, то, что армяне распространяют

этот факт в социальных сетях, снимая на камеру и видео, рассматривается как разжигание ненависти и противоречит международному праву (3, с.211). Кроме того, армянская сторона обстреливала журналистов, что, в свою очередь, является нарушением статьи 79 Дополнительного протокола № 1 к Женевским конвенциям и является военным преступлением.

Военные преступления Армении уже подтверждены международными организациями. Только международная неправительственная организация Human Rights Watch заявила, что в Армении уже было 11 фактов военных преступлений, и что эти факты были подтверждены космической съемкой (1). В то же время Генеральная прокуратура Азербайджанской Республики заявила, что все преступления расследуются, необходимые документы будут подготовлены и направлены в соответствующие органы, и будут предприняты все шаги для того, чтобы эти преступники понесли заслуженное наказание.

В заключение, хотелось бы отметить, что, несмотря на международное признание необходимости уголовного преследования за совершение преступлений во время вооруженных конфликтов, эти действия часто остаются безнаказанными. Это связано с тем, что страны часто отказываются судить своих политических лидеров (5, с.220). В этом случае возникает вопрос об ответственности за военные преступления, совершенные во время Второй карабахской войны, которая считается международным вооруженным конфликтом. Согласно механизму ответственности, установленной Женевскими конвенциями за нарушение закона, если одна из сторон грубо нарушает законы войны, послевоенный трибунал может привлечь к ответственности тех, кто отдал такие приказы. Однако в нынешней политической ситуации такое наказание преступников не выглядит реалистичным.

## References

1. Allahverdiyev Ə.V. Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər. Dərs vəsaiti. Bakı. “Elm və təhsil” nəşriyyatı. 2020.
2. Əliyev Ə.I. – Azərbaycan beynəlxalq cinayətlər hədəfində: Hüquqi təhlil. Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018.
3. Məcidli S.T. “Azərbaycanlılara qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər (1918-2018-ci illər)”. Bakı: 2020.
4. Yücel Acer – Ermenistanın Savaş Suçları Uluslararası Hukuk Ve Ermenistanın Karabağa Dair Askeri Faaliyetleri:. Turkuvaz Haberleşme ve Yayıncılık A.Ş. İstanbul, 2020.
5. А.А.Лупу, И.Ю.Оськина – Международное уголовное право:Учебное пособие / М.: Издательско-торговая корпорация «Дашков и К», 2019.

**Rəyçi: prof. R.Məmmədov**

Göndərilib: 05.12.2021 Qəbul edilib: 25.12.2021

## TƏBİƏT ELMLƏRİ BÖLMƏSİ

**NATURAL SCIENCES SECTION**

DOI: https://www.doi.org/10.36719/2789-6919/34-37

**Günay İsfəndiyar qızı Sadıqova**
Gəncə Dövlət Universiteti
dosent əvəzi
sgi_bioloq@mail.ru
**Aysel Cavad qızı Bağırova**
Gəncə Dövlət Universiteti
**Arif Rafiq oğlu Əliyev**
Gəncə Dövlət Universiteti

# İMMUNPATOLOJİ VƏZİYYƏTİN TƏHLİLİ

**Xülasə**

Yeni koronavirusun bütün dünyada narahatlıq doğurduğu bir vaxtda zəifləmiş immunitet və immunitet sisteminin gücləndirilməsi məsələsi daha aktualdır. Mütəxəssislər hesab edirlər ki, viral infeksiyalar immuniteti zəif olan insanlara daha tez təsir edir və onlarda virus fəsadları daha çox olur. İmmuniteti güclü olanlar ümumiyyətlə yoluxmazlar. Bu səbəbdən immunitet sistemini güclü saxlamaq insanın öz ixtiyarındadır. Əgər insan itirdiyi sağlamlığın birdən-birə çətinliklə qayıdacağını və ya heç qayıtmayacağını düşünsə, heç vaxt özünü laqeyd qoymaz.
***Açar sözlər:*** *insan orqanizmi, immun vəziyyət, leykosit, hiperhəssaslıq,qazanılmış defekt, anadangəlmə, patoloji vəziyyət, təcili, ləng tipli, B,T-leykositlər*

## Analysis of the immunpathological situation

**Summary**

The issue of weakened immunity and strengthening the immune system is even more relevant at a time when the new coronavirus is causing concern around the world. Experts believe that viral infections affect people with weakened immune systems more quickly, and that viral complications are more likely to occur in them. Those with strong immunity are generally not infected. For this reason, it is up to the individual to maintain a strong immune system. If a person thinks that the lost health will suddenly return with difficulty or may not return at all, he will never neglect himself.
***Key words:*** *human body, immune status, leukocytes, hypersensitivity, acquired defect, congenital, pathological condition, emergency, slow type, B, T-leukocytes*

## Giriş

Insan orqanizmin immun sistemində baş verən hər hansı patoloji dəyişiklik və ya reaksiyalar immun patoloji vəziyyət adlanır. Bu cür dəyişikliklərə immun sistemin anadangəlmə və qazanılmış deffektləri və ya immunodefisitləri, təcili və ləng tipli hiperhəssaslıq reaksiyaları, autoimmun proseslər aiddir.

Orqanizmin immun sisteminin anadangəlmə və ya qazanılmış çatışmazlığı, immun müdafiə reaksiyalarının qənaətbəxş olmaması ilə xarakteriza olunan vəziyyət immunodefisitlər adlanır. Anadangəlmə (birincili) və qazanılmış (ikincili) immunodefisitlər ayırd edilir. Anadangəlmə (birin-cili) immunodefisitlər zamanı immun sisteminin çatışmazlığı artıq erkən uşaq yaşlarından özünü biruzə verir. Bu zanman müxtəlif infeksion agentlərə qarşı orqanizmin lazımi qədər mühafizə edilməməsi üzündən bu vəziyyət çox vaxtı elə uşaq yaşalrında ikən ölümlə nəticələnir. Birncili immunodefisitlər orqanizmin immun sisteminin inkişafının müxtəlif mərhələlərində baş verən genetik pozuntularla əlaqədar olaraq meydana çıxır. Bu pozuntular hemo və limfopoezin müxtəlif

səviyyələrində meydana çıxdığından immunodefisitlər də müxtəlif aralıüqlı gediçşə malik olurlar. Məsələn: Hemopoezin sütun hüceyrələri səviyyəsində pozğunluq tam aplaziya və ya sütun hüceyrələrindən T- və B- limfositlərin diferensiasiyasının məhdudlaşması ilə nəticələnir. Hemopoezin daha yülksək səviyyələrdə pozulması T və B limfositlərin hissəvi defisitinə gətirib çıxarır. T limfositlərin əmələ gəlməsi və differensiasiya səviyyəsində bu pozuntu T defisitin, B limfositlərin əmələ gəlməsi və differensiasiyaslı səviyyəsində isə bu pozuntu M,G və A immunoqlobulinləri hazırlayan müxtəlif plazmatik hüceyrələrin defisitinə səbəb olur. Qazanılmış immunodefisitlər (ikincili) immunodefisitlər immun sistemin genetik defekti ilə əlaqdədar olmayıb, müxtəlif patoloji proses və xəstəliklər nəticəsində meydana çıxır. Qazanılmış immunodefisitə ağır iltihabi proseslər, bəzi infeksiyalayr (QİÇS,vərəm,brusselyoz, kandidoz və s), toksikozlar, güclü qanitirmə, qidalanma pozğunluqları, onkoloji xəstəliklər, diabet, piylənmə və s səbəb ola bilrər.

## Material və metod

Orqanizmin immun sisteminin zəifliyi ilə əlaqədar olan patoloji proseslər immun çatışmazhğı sindromları adlanır. Onlar ilkin (birin-cili) və qazamlmış (ikincili) olmaqla, 2 qrupa bölünür. İlkin immun çatışmazlığı sindromlarma limfoid toxumanm inkişafmm müxtəlif dərəcədələngiməsi ilə (hipoplaziya, aplaziya) əlaqədar olan irsi və ana-dangəlmə çatışmazlıqlar aiddir. Qazanılmış immun çatışmazlıqları isə ya fərdi inkişaf dövründə keçirilən xəstəliklərin, ya da dərman preparatlarımn təsiri nəticəsində yaranır.

İlkin immun çatışmazhğı sindromları. Onun aşağıdakı formaları vardır: I.Hüceyrəvi immunitet çatışmazhğı sindromu. Bu sindromlar timus vəzisinin və periferik limfoid toxumanın timusdan asılı olan zonalarmm inkişafdan qalması ilə xarakterizə edilir və müxtəlif inkişaf qüsurları ilə müşayiət olunur.

II.Humoral immunitet çatışmazlığı sindromu. Bu sindromunda bütün immunoqlubinlərin sintezi pozulur. Humoral immunitet çatışmazlığı sindromları olan xəstələrdə bakterial infeksiyalar xüsusilə ağır keçir; bronxlarda, ağciyərlərdə, mədə-bağırsaq sistemində, dəridə və başqa toxumalarda irinli destruktiv dəyişikliklər yaranır, bunlar çox vaxt sepsisin inkişafına səbəb olur.

III.Qarışıq (hüceyrəvi və humoral) immunitet çatışmazlığı sindromu. Bu sindromlar zamanı həm timus, həm də periferik limfoid toxuma hipoplaziyaya uğradığma görə, humoral və hüceyrəvi immunitet paralel surətdə zəifləyir. Belə xəstəliyi olan uşaqlarda immun sistem zəifliyindən başqa, müxtəlif inkişaf qüsurlan və bədxassəli mezenximal şişlər (xüsusən atakasiya-teleangiektaziya xəstəliyində) müşahidə edilir.

Bu sindromlarımn əsas klinik əlamətləri orqanizmin infeksion xəstəliklərə qarşı müqavimətinin zəifləməsi ilə əlaqədardır. İmmun sisteminin fəaliyyəti zəif olan uşaqlar tez-tez infek-sion xəstəliklərə tutulur və bu xəstəlikləri öz sağlam yaşıdlarma nisbətən ağır keçirirlər. Onlar tez-tez tənəffüs sisteminin və sidik-cinsiyyət orqanlarmm iltihabi xəstəliklərinə tutulurlar; mədə-bağırsaq sistemi-nin ishalla müşayiət olunan xəstəliklərinə bu uşaqlarda daha çox təsadüf edilir.

## Analiz

Buradan da məlum olur ki, immun vəziyyətin pozulması orqanizmamızı tamamilə sıradan çıxara bilər. Sensibilizasiyaya uğramış orqanizmə təkrarən daxil olan allergenlər spesifik anticislmciklərlə birləşib, allergenanticisimcik kompleksləri (immun komplekslər) əmələ gətirir. İmmun komplekslərin yarandığı andan etibarən allergik reaksiyaların II mərhələsi başlayır. Bu mərhələnin əsas xüsusiyyətləri orqanizmdə bioloji aktiv maddələrin (allergiya mediatorları) yaranmasmdan ibarətdir. Allergenanticisimcik kompleksləri orqanizmin komplement sistemini və qanda qeyriaktiv şəkildə olan proteolitik fer-mentləri (tripsinogen, plazminogen, kallikreinogen) aktivləşdirir, tosqun hüceyrələri dcqranulyasiyaya uğratmaqla, onlarda olan bioloji aktiv maddələrin ətraf mühitə çıxmasma şərait yaradır.

İmmun sisteminin əsas hüceyrəsi leykositlərin, yaxud ağ qan hüceyrələrinin bir növü olan limfositlərdir. Limfositlər leykositlərin ümumi miqdarının 1/3 təşkil edir. Onlar leykositlərdən özünəməxsus morfologiyası ilə fərqlənirlər.

İmmun sistemin hüceyrələri heterogen və çoxfunksiyalıdır. İmmun sistemin periferik orqanlarında immun nəzarəti bilavasitə həyata keçirən immunokompetent hüceyrələr yerləşir. Burada həmçinin, immunogenez – immunokompetent hüceyrələrin çoxalması və son differensasiyası baş verir.

İmmun sistemin periferik limfoid orqanlarında antigen təsiri nəticəsində limfositlərin müvafiq differensiasiyası və immun cavabın formalaşması ilə əlaqədar mürəkkəb proseslər baş verir. Elə buna gorə də periferik limfoid orqanların kənarlaşdırılması immun sistemin lokal olsa da, bir sıra vacib funksiyalarının itirilməsinə səbəb olur.

İnsan orqanizmasında patoloji vəziyyətin yaranmasında bir çox amillər səbəb olur. Bunlardan xroniki yorğunluq, infeksiyaların tez-tez təkrarlanması və s misal göstərmək olar.

Xroniki yorğunluq sindromu son illərdə insanlar arasında durmadan artır. Heç bir iş görmədiyiniz halda yorğunluğun hiss edilməsi immun sisteminin zəifləməsinin əlamətidir. Səhər yorğun qalxırsınızsa, yaxud istirahətdən sonra özünüzü yenə yorğun hiss edirsinizsə, bu, həkimə müraciət etmək üçün yetərli əlamətlərdir.

Yay aylarında qrip, zökəm, soyuqdəymə yaranırsa və bunlar davamlı təkrar edirsə, dərmanlarla müalicəyə başlamazdan əvvəl immun sistemini yoxlamağa dəyər. İshal, sidik yolu infeksiyaları, genital infeksiyaları, göbələk, tənəffüs yolu infeksiyalarının tez-tez təkrarlanması immunitetinin aşağı düşməsinin mühüm xəbərdarlığıdır.

İmmuniteti təmin edən ağ qan hüceyrələri lazimi səviyyədə olmadıqda, bədən infeksiyalara daha asan yoluxur və daha çətin sağalır.

Allergik şikayətlərin çoxalması immun sistemin tarazlığının pozulmasını bildirir. İmmun sistemi çox işləyəndə allergiya əmələ gəlir, az çalışanda infeksiyalar inkişaf edir. Burun axıntısı, asqırıq, gözlərdə yaşarma, öskürək, təngənəfəslik, dəridə qaşınma allergik mənşəli ola bilər.

Orqanizmin immun sistemində baş verən hər hansı patoloji dəyişiklik və ya reaksiyalar. Bu cür dəyişikliklərə immun sistemin anadangəlmə və qazanılmış deffektləri və ya immunodefisitləri, təcili və ləng tipli hiperhəssaslıq reaksiyaları, autoimmun proseslər aiddir.

Orqanizmdə genetik yad substansiyalara qarşı cavab reaksiyalarını həyata kecirəcək hüceyrə, toxuma və orqanlar toplusu immun sistemini təşkil edir. İmmun sistemi orqanizmi bakteriyalardan, viruslardan, parazitlərdən müdafiə edir. O cümlədən immun sistem ölmüş yaxud ölməkdə olan, mutasiyaya məruz qalmış hüceyrələri kənarlaşdırır, bəd xassəli şişlərə qarşı immuniteti təmin edir.

İmmun sistemin cavab reaksiyaları toxuma və orqanların köçürülməsində uyuşmazlığın əsasını təşkil edir. Bunun pozğunluqlari çox hallarda autoimmun xəstəliklərin inkişafina, allergiya, yeni doğulmuş uşaqlarda bir sıra patoloji proseslərə, bədxassəli şişlərin əmələ gəlməsinə, xroniki infeksion proseslərin inkişafına səbəb olur.

## Nəticə və təkliflər

Dünya əhalisinin 15 faizə qədərinin immunitet zəifliyindən əziyyət çəkdiyi bildirilir. Bu problemə diqqət çəkmək üçün Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2002-ci ildən etibarən hər il martın 1-i Ümumdünya İmmunitet Günü kimi qeyd olunur və bu ay boyunca müxtəlif maarifləndirici tədbirlər keçirilir. İmmunitet zəifliyi, immun sisteminin gücləndirlməsi mövzusu yeni koronavirusun dünyada təşvişə səbəb olduğu bir məqamda daha çox aktuallıq kəsb edir. Mütəxəssislər hesab edir ki, virus infeksiyaları immun sistemi zəif olan insanlara daha tez təsir edir və virusların fəsadlaşması da məhz onlarda qeydə alınır. İmmuniteti güclü olanlar isə ümumiyyətlə, virusa yoluxmurlar. Bu səbəbdəndə immun sistemini möhkəm saxlatmaq insanın öz əlində olur. İnsan düşünsək ki, itən sağlamlıq birdə cətinliklə geri dönər və ya heç dönməyədə bilər o hec zaman özünə qarşı diqqətsizlik etməz.

## References

1. Agayev I.A, Vahabov E.F, Khalafli H.N., Tagiyeva F.Sh. Immunoprophylaxis. Textbook, Baku, 2016.
2. Agayev I.A, Khalafli H.N., Tagiyeva F.Sh. Epidemiology. Textbook (for students of the Faculty of Medical Prophylaxis), Baku, 2012, 728p.

3. Sadigova GI Basics of immunoprophylaxis Ganja -2019
4. "Cold Chain" system of the Extended Immunization Program. Methodical recommendations. Baku, 2006.
5. Extended Immunization Program. Funds for medical staff. Az.Res.SN-INISEF, 2002.
6. Brico NI, Pokrovsky VI Epidemiology: textbook. M.: «GEOTAR-Media», 2015.
7. Zueva LP, Yafaev RH Epidemiology. SPb.: Foliant, 2006.
8. Pokrovsky VI, Pak SG, Brico NI, Danilkin BK Infectious Diseases and Epidemiology: Textbook. 2nd ed. M.: GEOTAR-Med, 2007, 816 p.
9. Guide to practical classes on epidemiology of infectious diseases: Textbook / Ed. Prof. VI Pokrovsky, Prof. NI Brico. M.: GEOTAR-Media, 2007, 768 p.
10. Yushchuk ND, Martynov Yu.V. Epidemiology: Textbook. M.: Medicine, 2003, 448p.

Göndərilib: 08.12.2021 Qəbul edilib: 24.12.2021

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES


**Validə Eldar qızı Ağayeva**
Disputun şifahi nitq növü kimi tələbələrin mənəvi keyfiyyətlərinin və ünsiyyət vərdişlərinin inkişafına təsiri ........ 7

**Həlimə Ağaşükür qızı Ağayeva**
Esse və inşa yazılarının dil-üslüb xüsusiyyətləri ........ 11

**Nigar Qurban qızı Hüseynova**
İnvestisiya regional turizmin inkişaf amili kimi ........ 15

**Nazrin Afiq Zeynalova**
Legal liability for copyright infringement in the advertising industry ........ 19

**Aybəniz Pərviz qızı Yəhyalı**
İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinin parlaq səhifəsidir ........ 24

**Nigar Məhyəddin qızı Mehdiyeva**
Нарушение армянами норм международного гуманитарного права во время II-ой Карабахской войны ........ 30


## TƏBİƏT ELMLƏRİ BÖLMƏSİ
### NATURAL SCIENCES SECTION


**Günay İsfəndiyar qızı Sadıqova, Aysel Cavad qızı Bağırova, Arif Rafiq oğlu Əliyev**
İmmunpatoloji vəziyyətin təhlili ........ 34



Çapa imzalanmışdır: 29.12.2021
Kağız formatı: 60/84
H/n həcmi: 3,25
Sifariş: 452

www.aem.az saytında çap olunub
**Redaksiya ünvanı:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
E-mail: info@aem.az